

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

**Ümummilli Lider HEYDƏR ƏLİYEV**

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 dekabr 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU ilə Almaniyanın Halle Vittenberq Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb**

➔Səh.2

**"Milli qəhrəmanlarımız - Mübariz İbrahimov" adlı onlayn disput keçirilib**

➔Səh.8

**BDU-nun tələbə kollektivi şəhid məzun Şamil Nəcəfovun ailəsini ziyarət edib**

➔Səh.8

**Professor Abuzər Xələfovun 90 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib**

➔Səh.10

**Beynəlxalq Könüllülər Gününə həsr olunmuş tədbir keçirilib**

➔Səh.13

**BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı BDU-ya kitablar hədiyyə edib**

➔Səh.16

**"Soyuq günəş" filminin qəhrəmanları BDU-da**

➔Səh.16



**BDU-da Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib**

➔Səh.2



**BDU Taras Şevçenko adına Kiyev Milli Universiteti ilə əməkdaşlıq edəcək**

➔Səh.3



**Professor Nəsir İmanquliyevin 110 illiyinə həsr olunmuş elmi konfrans keçirilib**

➔Səh.7



**BDU və Fırat Universiteti arasında memorandum imzalanıb**

➔Səh.8



**BDU Elmi Şurasının növbəti iclası keçirilib**

➔Səh.9




## Ümummilli Lider Heydər Əliyevin anım günüdür

### *10 dekabr dahi şəxsiyyət, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatından 18 il keçir*

***Tarix dahi şəxsiyyətlərin ideyalarının və əməllərinin üzərində qərar tutur. Tarixin bütün dövrlərində inkişafa təkan verən əsas qüvvə rolunda dahi şəxsiyyətlər, liderlər çıxış edib.*** Bu mənada Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi dünya şöhrətli lideri, vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər kəsə örnək olan, millətini və dövlətini dünyaya tanıdan, bütün ömrünü xalqının xoşbəxt gələcəyi, rifahı və dövlətinin möhkəmlənməsi uğrunda mübarizəyə həsr etmiş övladı olmuşdur.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, dünya siyasətinə adını yazdıran müdrik siyasi lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Bütün həyatını xalqına həsr edən Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyətdir.

Xalqını sonsuz məhəbbətlə sevən, azərbaycanlı olmağı ilə həmişə qürur duyan fenomenal şəxsiyyət Heydər Əliyev bütün zamanların ən böyük azərbaycanlısı kimi hər birimizin ürəyində özünə taxt qurmuşdur. Azərbaycanda dövlətçilik ənənələrinin zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan dahi şəxsiyyət bütün dünya azərbaycanlılarının fəxrinə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi ilə müasir Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsasları yaradılmış, müstəqil Azərbaycan dünyada öz layiqli yerini tutmuşdur. Onun siyasi, sosial-iqtisadi, elm-təhsil, ictimai və mədəni həyatın bütün sahələrində apardığı islahatlar, bu sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması Azərbaycanın müasir inkişafının təminatı olmuşdur.

Heydər Əliyevin şərəfli ömür yolu Vətəninə, xalqına bağlı hər bir azərbaycanlı üçün parlaq nümunədir. Ulu Öndər çoxşaxəli fəaliyyəti, xalqına, millətinə, dövlətinə sonsuz sevgisi ilə, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmiş fenomenal şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir.

Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır.

*(Ardı 2-ci səhifədə)*





*BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub*



(əvvəli 1-ci səhifədə)

1993-2003-cü illər Ulu Öndər Heydər Əliyevin imzası ilə Azərbaycan tarixində inkişafın və tərəqqinin bünövrəsinin qoyulduğu dövr kimi tarixin yaddaşına qızıl hərflərlə yazılmışdır. 2003-cü ildən başlayaraq isə ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi islahatlarla inkişafın yeni mərhələsinə qədəm qoyaraq regional güc mərkəzinə çevrilmiş, dünyada öz layiqli yerini tutmuşdur.

Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır - xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilmiş, 30 ildən bəri düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşmuşdur. Bu gün Azərbaycan bayrağı əzəli torpaqlarımızda, müqəddəs Şuşa şəhərində dalğalanır. Heydər Əliyevin böyük siyasəti qalib gəlməklə onun ölməzliyini bir daha təsdiqləmişdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir. Hər bir Azərbaycan vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir. Ömrünü Azərbaycana fəda etmiş müdrik siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı daim dərin hörmətlə xatırlanacaq, onun əziz və unudulmaz xatirəsi xalqımız tərəfindən əbədi olaraq ehtiramla yad ediləcəkdir.

# BDU-da Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib

***Dekabrın 10-da Bakı Dövlət Universitetində Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.*** Tədbirdən öncə BDU-nun rəhbərliyi Fəxri xiyabana gedərək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.



Ulu Öndərin Universitetin foyesində qoyulmuş büstü önünə gül dəstələri qoyulduqdan sonra anım tədbiri BDU-nun Akt zalında davam edib.



Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan Universitetin rektoru Elçin Babayev Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb. Xalqımızın milli-mənəvi dəyərlərinin qarantı olan, bütün dövrlərdə onların qorunmasına çalışan görkəmli dövlət xadiminin mədəniyyətimizin, elmimizin və təhsilimizin hərtərəfli inkişafı üçün gördüyü işlərin konkret nəticələr verdiyini vurğulayıb. Ümummilli Liderin elm, təhsil, mədəniyyət sahələrinin inkişafına göstərdiyi əvəzolunmaz rolundan bəhs edən Elçin Babayev bu siyasətin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla və əzmlə davam etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu şaddır – xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bərpa edilib, 30 ildən bəri düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşub.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar və Xalq şairi Nəriman Həsənzadə çıxışlarında Ulu Öndərin Azərbaycan dövlətçiliyinin, milli ədəbiyyatımız və mədəniyyətimizin inkişafındakı xidmətləri haqqında, Milli Məclisin üzvü Sevinc Fətəliyeva, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü çoxşaxəli fəaliyyətlərindən, həyata keçirdiyi layihələrdən, ölkəmizin beynəlxalq aləmdə söz sahibinə çevrilməsindəki xidmətlərindən bəhs edib.

Çıxışlarda natiqlər Azərbaycanın hərtərəfli tərəqqisi yolunda böyük tarixi xidmətlər göstərən, dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunmasına əvəzsiz töhfələr verən Heydər Əliyevin Vətənə sədaqət, xalqa fədakarlıqla xidmət nümunələridən söz açıblar. Qeyd olunub ki, bütün varlığı ilə Vətənə və xalqına bağlı olan Ümummilli Lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə həsr edib.

# Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Xilaskar" adlı tədbir keçirilib

***Dekabrın 9-da Tarix fakültəsinin Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Xilaskar" adlı tədbir keçirilib.***

Azərbaycan Respublikasının Dövlət Himni ilə başlanan tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz xidmətlərindən bəhs edib. Ulu Öndərin uğurlu siyasi fəaliyyətinin nəticəsi olaraq, sütunları möhkəm bir dövlət miras qoyub-getdiyini və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq dövlətimizin daha da inkişaf etdiyini vurğulayıb. Elm və təhsil sahəsində



Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran natiq bu gün dövlətçiliyimizin yüksək səviyyədə olmasını məhz Ümummilli Liderin uzaqgörən siyasəti sayəsində əldə edildiyini qeyd edib.

Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru İbrahim Zeynalov çıxışında Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsindəki fəaliyyətinə, çalışdığı dövrlərə, onun rəhbərliyi dövründə Azərbaycanda baş verən siyasi və ictimai hadisələrə nəzər salıb.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov çıxışında Ulu öndərin gənclər siyasətindən, gənclərə göstərdiyi qayğı və diqqətdən söz açıb.

Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Nuru Məmmədov Ulu Öndərin sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi dövründə gördüyü işlərdən, xalqa xidmətindən bəhs edib.

Tarix fakültəsinin TEC sədri Ağamirzə Məmmədov Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsindən 2003-cü ilə qədər müasir Azərbaycanın keçdiyi inkişaf yolundan bəhs edib.

Daha sonra Tarix fakültəsi I kurs tələbəsi Həlilə Sadıqova Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamızın hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyduğunu vurğulayıb, onun xidmətləri sayəsində Azərbaycanda kadr hazırlığı, sosial layihələrin həyata keçirilməsi haqqında çıxış edib.

Sonda Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

# Fakültələrin birgə təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir

***Dekabrın 10-da Mexanika-riyaziyyat, Geologiya və Tarix fakültələrinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Xalqın xilaskarı" adlı tədbir keçirilib.***

Geologiya fakültəsinin dekan müavini, YAP Gənclər Birliyi İdarə Heyətinin üzvü İlqar Quliyev qeyd edib ki, hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynayıblar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb.

YAP İdarə Heyətinin üzvü, Memarlıq və İnşaat Universitetinin dosenti Bayram Aslanov çıxış edərək qeyd edib ki, intibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

Tarix fakültəsinin professoru İbrahim Zeynalov 1969-cu ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatların müsbətə doğru dəyişdiyini, 1969-82-ci illərdə baş verən bütün köklü dəyişikliklərin öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil etdiyini bildirib. Mexanika-riyaziyyat fakültəsinin dekan müavini, YAP Zahid Xəlilov 23. Ərazi İlk Partiya Təşkilatının sədr müavini Etibar Əhmədov isə çıxışında Azərbaycanda uğurla həyata keçirilən və Ulu öndərin banisi olduğu gənclər siyasətindən, dahi liderin gənclərə diqqət və qayğısından bəhs edib. Natiq çıxışında əsası Ulu öndər tərəfindən qoyulan dövlət quruculuğu prosesinin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.




Tədbirdə çıxış edənlər - Tarix fakültəsinin əməkdaşı Anar Cəfərov, Geologiya fakültəsinin müəllimi Ələkbər Həsənov, Karyera və məzunlarla əlaqə sektorunun əməkdaşı İlkin Şərifov və Mexanika-riyaziyyat fakültəsinin tələbəsi Katya İbrahimli Ulu öndərin siyasi hakimiyyətdə olduğu illərdə həyata keçirilən quruculuq, abadlıq işlərindən, gənclər siyasəti və müstəqil Azərbaycanın qurulması sahəsində göstərdiyi xidmətlərdən danışıblar. Ümummilli lider Heydər Əliyevin müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik şəxsiyyət kimi müasir Azərbaycan dövlətinin qurulması istiqamətində atdığı addımlardan bəhs ediblər.

Sonda Ulu öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş olunub.



# BDU THİK Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirib

***Dekabrın 13-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Sosial elmlər və psixologiya fakültəsində Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fakültənin dekan müavini İranə Məmmədli Heydər Əliyevin dövlət xadimi, uzaqgörən, dünya miqyaslı siyasətçi kimi xüsusi rolunu və Heydər Əliyev siyasi kursunun bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsipinə söykəndiyini vurğulayıb. Sosial elmlər və psixologiya fakültəsinin dekanı vəzifəsini icra edən Daxil Vəliyev çıxışında Ulu öndərin Azərbaycan xalqına verdiyi töhfələr haqqında söhbət açıb. Bildirib ki, Heydər Əliyev elə bir dahidir ki, onun haqqında illər boyu danışılıb, tarix boyu da həmişə danışılacaq.



Fakültənin tələbələri - Leyla Rəcəbzadə və Günel Musayeva çıxışlarında dahi liderin siyasi fəaliyyəti, onun dövlət quruculuğu işlərindən, müstəqil Azərbaycanın inkişafındakı misilsiz xidmətlərindən, Azərbaycan xalqına sevgisindən bəhs ediblər.

Anım mərasimində həmçinin Ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş videoçarxlar nümayiş olunub.

Fakültənin tələbələri Nazənin Əhmədova və Samir Hacıyev "Ulu bir öndər, Ulu bir sərkərdə" şeirini səsləndirib.

Sonda Xarıbülbül festivalından videoçarx təqdim edilib.

# BDU Taras Şevçenko adına Kiyev Milli Universiteti ilə əməkdaşlıq edəcək

***Dekabrın 3-də Taras Şevçenko adına Kiyev Milli Universitetinin rektoru Volodimir Buqrov Bakı Dövlət Universitetində olub.***

Rektor Elçin Babayev BDU-nun beynəlxalq əməkdaşlığından, dünyanın aparıcı ölkələrinin ali məktəbləri, o cümlədən Ukrayna universitetləri ilə ikitərəfli əlaqələrindən danışıb. Rektor ölkələr arasında getdikcə daha da artan əməkdaşlığın bütün fəaliyyət sahələrində olduğu kimi, elm, təhsil sahəsində də yüksək səviyyədə olduğunu qeyd edib.

Volodimir Buqrov qəbula görə Elçin Babayevə təşəkkür edib, iki ölkə arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin elm, təhsil sahəsində əməkdaşlıqda da ön planda olduğunu bildirib.




Daha sonra iki ali məktəb arasında anlaşma memorandumu imzalanıb. Sənədi BDU-nun rektoru Elçin Babayev və Kiyev Milli Universitetinin rektoru Volodimir Buqrov imzalayıblar.

Memorandumda universitetlər arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində birgə əməkdaşlığın qurulması nəzərdə tutulub. Müqavilənin məqsədi universitetlər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, elmi-tədqiqat işlərində əməkdaşlıq, kadr mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı maraq doğuran digər sahələrdə müxtəlif tədbirlərin, o cümlədən konfransların, sərgilərin, seminarların, simpoziumların, təlimlərin birgə təşkilindən ibarətdir.

Qeyd edək ki, Taras Şevçenko adına Kiyev Milli Universiteti çoxsahəli elm və təhsil kompleksidir. Onun bazasında 14 humanitar və təbiət elmləri istiqamətli fakültə və 7 tədris institutu fəaliyyət göstərir. Universitetdə təxminən 27 min tələbə təhsil alır. 70 ixtisas və 153 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

# Tarix yazan Lider

***Xalqların, dövlətlərin tarixini dahi şəxsiyyətlər, liderlər yazır. Əsl liderliyin meyarları barədə yanaşmalar hər nə qədər müxtəlif olsa da, bu məsələyə baxışlarda üst-üstə düşən məqamlar kifayət qədərdir. Elə keyfiyyətlər var ki, onlar bütün tarixi dövrlərin, xalqların siyasi liderlərinin, tarixdə iz qoymuş şəxsiyyətlərin əsas cəhətləri kimi diqqət çəkir. Fikrimizcə, bu əlamətlərdən ən başlıcası və bəlkə də ən mühümü öz xalqının liderinə inamıdır.***



### *İnamın gücü*

Müasir dövrdə dünyanın ən parlaq liderlərindən olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ictimai-siyasi portretində inam faktoru səciyyəvi əlamət kimi xüsusi diqqət çəkir. Liderə inam bütün cəmiyyətlərdə hər zaman həlledici amil olub və bundan sonra da belə olacaqdır. Çünki cəmiyyətlərdəki ictimai-siyasi, sosial-iqtisadi şəraitlər, baş verən proseslərin inkişafı daim insanları düşündürür və bununla bağlı əksər hallarda adekvat qərarların verilməsini gözləyirlər. Sadə insanlar bu qərarları düzgün verə biləcək, dəqiq, doğru yol seçə biləcək şəxsiyyətlərin ardınca gələcəyə doğru irəliləyirlər.

Müstəqilliyimizin ilk illərindəki ağır siyasi, sosial-iqtisadi böhran dövründə xalqımız üçün belə bir tarixi missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirdi. Ulu Öndər xalqımızın ona inamını hələ sovet Azərbaycanına rəhbərliyi dövründə qazanmışdı. Azərbaycan üçün gördüyü müqayisəyəgəlməz işlərlə, cəmiyyətdə yaratdığı köklü dəyişikliklərlə, müdrikliyi, daim haqqın-ədalətin tərəfində durması ilə belə bir inamı yaratmışdı.

1990-cı illərin əvvəllərində hakimiyyət başında olan naşı insanların yanlış qərarları və siyasi səriştəsizliyi ucbatından Azərbaycan vətəndaş müharibəsinin bircə addımlığına gəlib çatanda, parçalanaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalanda, cəmiyyətdə hökm sürən xaos, sosial-iqtisadi böhran, hakimiyyət uğrunda didişmələr ölkəmizi çıxılmaz vəziyyətə salanda xalqımız öz nicatını, dövlətimizin xilasını məhz Ümummilli Lider Heydər Əliyevdə gördü. İnsanlar onun şəxsiyyətinə olan inamdan güc alırdı. Təkidlə Ümummilli Liderin siyasi hakimiyyətə qayıdışını tələb edirdilər. Ulu Öndər Azərbaycan xalqının səsini eşitdi və dövlətçiliyimizin xilası naminə yenicə müstəqilliyini bərpa etmiş dövlətimizi labüd fəlakətdən qurtardı. Ölkəmizi sabahı aydın, qüdrətlənmə və dirçəliş yoluna çıxartdı. Dövlətin hərtərəfli inkişafı üçün möhkəm təməllər formalaşdırdı.

Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də bu oldu ki, müdrik dövlət adamı müstəqil ölkəmizin bir daha təlatümlərlə üzləşməməsi üçün apardığı milli inkişaf kursunun davamlılığını təmin etdi. Bu kursu özündən sonra uğurla inkişaf etdirə biləcək layiqli davamçısını yetişdirdi. Onun bilik və bacarıqlarına, əzmkarlığına, Vətən, xalq sevgisinə, Heydər Əliyev yoluna sadiqliyinə inandı və Ulu Öndərin bu inamı ümumxalq etimadına çevrildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqımız və dövlətimiz qarşısında, daha geniş miqyasda yanaşsaq, bugünkü qlobal dünyada çox böyük tarixi xidmətləri var. Bu xidmətlərin hər biri Lider üçün çox böyük uğurdur. Cənab İlham Əliyevin siyasi karyerasının ilk möhtəşəm uğuru isə zənnimizcə, məhz Heydər Əliyev kimi böyük dövlət adamının, təcrübəli, dünya miqyaslı siyasətçinin inamını qazanmasıdır. Azərbaycan xalqının etimadına çevrilən bu inamı hər zaman doğrultması, insanlarımızın sarsılmaz güvən yeri olmasıdır.

### *Səmimiyyət*

İnam və etimad duyğusu çox çətin və uzunmüddətli formalaşan bir nailiyyətdir. Başqalarında inam yarada bilmək, etimad duyğusu aşılamaq hansısa vasitələr hesabına əxz olunan keyfiyyət deyildir. Bu, fitri bir məziyyətdir. Bu duyğunun əsas elementi səmimilikdir. Dünyanın müxtəlif elm mərkəzlərinin apardığı sorğular da göstərir ki, səmimiyyət xalqın sevdiyi, böyük hörmət bəslədiyi liderlərin ən mühüm xüsusiyyətlərindəndir. Azərbaycan Prezidenti şəxsiyyət olaraq son dərəcə səmimi bir insandır. Dürüstlük, səmimilik, adil olmaq cənab İlham Əliyevin hər zaman əsas qayəsidir və başqalarına da aşıladığı dəyərlərdir.

Səmimi olmaqla yanaşı, etimad bəslənilən liderlər yüksək kompetensiyalı və insanlar arasında ünsiyyət bacarıqlarına malik şəxsiyyətlərdir. Onlar qarşıya dəqiq hədəflər qoyur və başqalarını da bu hədəflərə doğru yönəltməyi bacarırlar. Biz bütün bu xüsusiyyətlərin Azərbaycan Respublikası Prezidentinin gündəlik fəaliyyətində şahidi oluruq. Cənab İlham Əliyev öz entuziazmını və inamını digər insanlara da məharətlə və effektiv şəkildə ötürə bilir. Dövlət rəhbərimizin istənilən çıxışını dinləyəndə hər bir insanda qürur hissləri yaranır, Vətən üçün, xalq üçün daha faydalı işlər görməyə çalışır, gələcəyə xoş ümidlərlə baxır. Ona görə ki, Azərbaycan Respublikası Prezidentinin fikirlərində hətta ən qeyri-müəyyən vəziyyətlərdən də adekvat çıxış yolları görürsən. Cənab İlham Əliyevin timsalında etibarlı, uzağı görməyi bacaran, addımlarında rəvan və ardıcıl, istənilən şəraitdə son dərəcə təmkinli davranan və uğurlu nəticələr yarada bilən qətiyyətli Liderin sureti gözlər önündə canlanır.

### *Yola sadiqlik*

Sədaqət hissi də əsl liderlərə xas mühüm keyfiyyətdir. Bu, insanın öz əqidəsinə, tutduğu yola, xalqı, dövləti qarşısında içdiyi anda sədaqətidir. Azərbaycan Respublikasının Prezidenti öz yoluna, verdiyi bütün sözlərə sadiqdir. Özünün də bəyan etdiyi kimi, sözü də imzası qədər dəyərlidir. Ona görə beynəlxalq arenada da İlham Əliyev şəxsiyyətinə çox böyük hörmət vardır.

Dünya liderləri, xarici tərəfdaşlar bilirlər ki, bütün məsələlərdə Azərbaycan Prezidentinə güvənmək olar. Bu mənada Azərbaycan Prezidenti ulularımızdan bizə miras qalmış mərdlik dəyərini siyasi müstəviyə daşımağı bacaran, siyasi fəaliyyətdə də ləyaqət, sözübütövlük, alicənablıq dəyərləri aşılayan liderdir. Azərbaycan Prezidentinin bütün məsələlərlə bağlı öz mövqeyi, baxışı, prinsipləri vardır. Bu, Azərbaycan dövlətinin, xalqının milli maraqları əsasında formalaşmış mövqe, baxışlar və prinsiplərdir.

Siyasi fəaliyyətə başladığı ilk günlərdən indiyədək cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik xəttinə uyğun olaraq Azərbaycan xalqına və dövlətinə xidmət edib. İndiyə qədər heç bir təsir və ya təzyiq cənab İlham Əliyevi bu yoldan çəkindirə bilməyib.

### *Müzəffər sərkərdə*

Cənab İlham Əliyev tutduğu yolla Azərbaycan xalqını illərdən bəri həsrətində olduğu qələbəyə yetirdi. Ali Baş Komandanı olduğu müzəffər Ordumuzun rəşadəti, vətənpərvər nəslin şücaəti ilə torpaqlarımızı düşmən tapdağından azad etdi. Təcavüzkar Ermənistanın illərdən bəri öz ordusu haqqında uydurduğu saxta mifləri darmadağın etdi. Bu miflərlə birgə Ermənistanın işğalçı ordusunu cəmi 44 gün ərzində sıradan çıxartdı. Qalib sərkərdə kimi adını tarixə yazdı.

Cənab İlham Əliyev ən azı 200 illik bir problemi həll edən - mənfur qonşularımızın məkrli niyyətlərini darmadağın edən Lider kimi Azərbaycan tarixinə düşdü. Uzun illərdən sonra ilk dəfə olaraq itirilmiş Azərbaycan torpaqlarını geri almağa müvəffəq olmuş rəhbər kimi bu ad xalqımızın Zəfər salnaməsinə həkk olundu.

Cənab İlham Əliyev Azərbaycan xalqının tarixində yeni bir səhifə açdı. Bu səhifənin ilk kəlməsi Zəfərlə başlayır. Torpaqlarımızı düşmən tapdağından azad etməklə Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu Öndərin ən ülvi, müqəddəs vəsiyyətini, ümdə arzusunu yerinə yetirmiş oldu.

### *Ata vəsiyyəti*

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra televiziya kanallarımızda vaxtilə Ümummilli Liderin müxtəlif tədbirlərdə, məcburi köçkünlərlə görüşlərdəki çıxışlarından örnəklər verilir. Bu çıxışlarda Ulu Öndər o zaman işğal altında olan ayrı-ayrı bölgələrimiz haqqında danışır. Azərbaycan xalqının gec-tez o torpaqları azad edəcəyini, məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıdacaqlarını inamla bildirir. Ümummilli Liderin təxminən 25 il əvvəl Qarabağın, Şərqi Zəngəzurun taleyi ilə bağlı bu qədər ümidli olmasına heyran olmaya bilmirsən. Ulu Öndər özünün müəyyənləşdirdiyi siyasətin qalib gələcəyinə, eyni zamanda layiqli davamçısı cənab İlham Əliyevə inanırdı. Əmin idi ki, onun ən böyük arzusunu - torpaqlarımızın azadlığını cənab İlham Əliyev öz məğrur xalqının dəstəyi ilə təmin edə biləcək. Elə bu inamla da 2003-cü ilin prezident seçkisi ərəfəsində Azərbaycan vətəndaşlarına üz tutaraq bildirirdi: “Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

### *Milli qürurun portreti*

2003-cü ildən bəri yaşadığımız tarixdə elə bir il, ay olmaz ki, cənab İlham Əliyevin Azərbaycana qazandırdığı hər hansı bir nailiyyətlə əlamətdar olmasın. Bu nailiyyətlərin hər biri Ulu Öndərin həmin o tarixi müraciətindəki ümidinin özünü doğrultmasıdır.

Bununla bağlı insan qəlbini riqqətə gətirən ən təsirli məqam Şuşanın azad olunduğu gün Ali Baş Komandan cənab İlham Əliyevin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə Fəxri xiyabanda Ümummilli Liderin məzarını ziyarət etməsi oldu. Ata vəsiyyətini şərəflə yerinə yetirən Müzəffər Ali Baş Komandan Şəhidlər xiyabanında - ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda haqq savaşında canını qurban vermiş şəhidlərimizin müqəddəs ruhlarının əhatəsində bu xoş müjdəni bütün dünya azərbaycanlılarına verdi. Qalib, qürurlu duruşu ilə milli dövlətçilik tariximizin ən möhtəşəm, fərəh dolu səhifəsini əsrlərin yaddaşında əbədiləşdirdi.

Cənab İlham Əliyev qlobal düşünməyi bacaran, təkcə Azərbaycan vətəndaşları ilə bağlı deyil, ümumilikdə bəşəriyyət üçün aktual məsələləri gündəmə gətirən, qlobal təşəbbüslər irəli sürən və onların yerinə yetirilməsi üçün fədakarlıq göstərən dünya miqyaslı siyasətçidir. Nadir istedada, geniş dünyagörüşünə, yüksək erudisiyaya malik tarixi şəxsiyyətdir.

Ümumiyyətlə, bütün fəaliyyət sahələrində ən uğurlu insanlar o kəslərdir ki, onların formalaşması üçün bir sıra amillər, tarixi şərait, əhatə olunduğu mühit, təhsil bir-birini tamamlayır. Azərbaycan Prezidentinin həyat və fəaliyyətinə nəzər saldıqda bu böyük şəxsiyyətin dövrünün ən parlaq liderlərindən biri kimi formalaşmasından ötrü bütün mühüm amillərin bir-birini qüvvətləndirdiyini görürük.

### *Tarixi zərurət*

Cənab İlham Əliyevin 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti vəzifələrində çalışdığı illər müstəqil dövlətimiz üçün tarixi inkişaf proseslərinə töhfələr vermək üçün mühüm bir mərhələ idi. Həmin dövrdə cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının həyata keçirilməsində fəal iştirak edir, Azərbaycana böyük uğurlar qazandırırdı.

Ötən əsrin sonlarından başlayaraq Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi cənab İlham Əliyev milli parlamentarizm tariximizdə yeni ənənələr formalaşdırdı. Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri, AŞ PA sədrinin müavini və Büro üzvü kimi böyük nailiyyətlərə imza atdı. 1999-cu ildə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, 2001-ci ildə Sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın Sədri seçilən cənab İlham Əliyev partiya quruculuğu fəaliyyəti ilə də cəmiyyətin böyük rəğbətini qazandı. Cənab İlham Əliyev 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildi və o vaxtdan etibarən müstəqil Azərbaycanda idmanın yüksəliş dövrü başladı.

Bu böyük dövlət adamının 2003-cü ildə xalqın böyük etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçildiyi dövr Ulu Öndər Heydər Əliyevin davamçısı kimi məhz qüdrətli bir rəhbərə ən çox ehtiyacın yarandığı tarixi dönəm idi. Ümummilli Lider Azərbaycanda demokratik-hüquqi dövlət quruculuğu prosesini uğurla həyata keçirmişdi. Ölkəmizin xarici siyasət kursunu müəyyənləşdirmiş, yeni neft strategiyasının əsasını qoymuş, azad bazar iqtisadiyyatı prinsiplərini bərqərar etmişdi. Azərbaycanın gələcək inkişafı üçün əsas şərtləri formalaşdırmışdı. Ölkənin nailiyyətlərinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi Prezident İlham Əliyevin əsas hədəfi idi. Cənab İlham Əliyev layiqli davamçı kimi bu hədəfləri gerçəkləşdirdi, hər bir azərbaycanlının Prezidenti oldu, xalqımızın arzularını parlaq şəkildə gerçəkləşdirdi.

***Yeni siyasi mədəniyyət***

Demək olar ki, bütün xalqımızın arzuladığı milli birlik ideyası məhz Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyevin sayəsində mümkün olub. Məsələlərə fərqli baxış bucaqlarından, müxtəlif münasibətlərdən asılı olmayaraq bu gün Azərbaycanda milli maraqlarla bağlı heç bir fikir ayrılığı yoxdur. Azərbaycan üçün prinsipial, taleyüklü məsələlərdə hamı eyni bir amal uğrunda birləşə bilir. Buna 44 günlük Vətən müharibəsində hər birimiz şahid olduq. Bu, Azərbaycan Prezidentinin cəmiyyətimizdə formalaşdırdığı yeni siyasi düşüncə tərzidir.

Məhz cənab İlham Əliyevin formalaşdırdığı bu siyasi təfəkkür sayəsində Azərbaycanda dialoq mühiti formalaşıb. Bütün məsələlər birgə müzakirə edilir, alternativ baxışlar, fərqli rəylər, faydalı təkliflər nəzərə alınır.

Azərbaycanda milli birliyin möhkəmlənməsində ölkəmizin Birinci vitseprezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çox böyük xidmətləri vardır. Azərbaycan Prezidentinin yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın aparılan dövlət siyasətinə töhfələri ölkəmizin nailiyyətlərini daha da artırır. Azərbaycanın evsahibliyi ilə keçirilən beynəlxalq tədbirlər, qlobal humanitar təşəbbüslər bütün dünyada ölkəmizin tolerantlıq, fərqli mədəniyyətlər arasında dialoq məkanı kimi mövqeyini gücləndirir.

***Missiya***

Vətən müharibəsindəki qələbəmizdən sonra regionda tamamilə yeni reallıq yaranıb. Azərbaycan Prezidenti Cənubi Qafqazda tarixin axarını dəyişir. Yaxın gələcəkdə bu regionun sülh, əməkdaşlıq, davamlı inkişaf, bütün tərəflər üçün qarşılıqlı faydalı məkana çevrilməsi üçün geniş üfüqlər açılır.

Xaraktercə qurucu şəxsiyyət olan, bütün fəaliyyəti dünyaya, bəşəriyyətə fayda verməyə yönələn Azərbaycan Prezidenti bu gün işğaldan azad olmuş yurdlarımızda başlanılmış genişmiqyaslı quruculuq layihələri ilə öz ülvi amallarını ifadə edir. Erməni vandallarının təxminən 30 ilə yaxın müddətdə Yer üzündən silməyə çalışdıqları qədim məskənlərimizi, şəhər və kəndlərimizi, tarixi, maddi mədəniyyət abidələrimizi qurucu əlləri ilə yenidən həyata qaytarır. Qarabağda, Şərqi Zəngəzurda XXI əsrin "ağıllı şəhər"ləri, "ağıllı kənd"ləri tikilir. Yeni yollar salınır, körpülər tikilir, su elektrik stansiyaları istifadəyə verilir, beynəlxalq hava limanları açılır, yeni yaşayış binalarının təməlləri qoyulur və saymaqla bitməyən nəhayətsiz, miqyası heç bir ölçüyə gəlməyən nəhəng layihələr gerçəkləşdirilir.

Prezident İlham Əliyev tərəfindən çox qısa zaman ərzində gerçəkləşdirilən bu layihələr həqiqətən də müasir dünyada heç bir siyasətçinin, dövlət başçısının edə bilməyəcəyi nəhayətsiz işlərdir. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında Prezident İlham Əliyevin Qarabağdakı quruculuq işlərindəki misilsiz xidmətlərinə yüksək dəyər verərək tarixi bir kəlam söylədi: "Bu, hər igidin, hər siyasətçinin işi deyil!" Bu gün hər bir azərbaycanlı bu tarixi kəlamın altından ürəklə öz imzasını atır.

Azərbaycan Prezidentinin sülh, əməkdaşlıq, kommunikasiya çağırışları, imkanların birgə dəyərləndirilməsi çağırışları ilə regionda yeni bir gələcək başlanır.

Bütün region dövlətlərinin üzünə yeni imkanlar açılır.

Bu tarixin müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Bu, onun tarixi missiyasıdır.

Missiya davam edir!..

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***

Mənbə: "Azərbaycan" qəzeti
23 dekabr 2021-ci il

# "Qalib lider, yenilməz xalq" mövzusunda tədbir keçirilib



***Dekabrın 23-də Geologiya, Mexanika-riyaziyyat və Tarix fakültələrinin birgə təşkilatçılığı ilə "Qalib lider, yenilməz xalq" mövzusunda tədbir keçirilib.*** Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra tədbirdə çıxış edən Geologiya fakültəsinin dekan müavini, YAP Gənclər Birliyinin üzvü İlqar Quliyev bildirib ki, xalqın yetişdirdiyi ən böyük sərvət hesab edilən liderlər nəticə etibarilə təmsil etdiyi toplumun şərəf tarixinin müəllifi olurlar. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinə obyektiv olaraq öz qarşısına möhtəşəm hədəflər qoyaraq başlamalı olmuşdur. Bu zərurət Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin öz bəhrəsini getdikcə daha aydın şəkildə göstərməyə başlaması fonunda cəmiyyətin ondan gözləntilərindən irəli gəlirdi. Tədbirdə çıxış edən YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev Prezidentin sosial-iqtisadi sahədə həyata keçirdiyi islahatlardan bəhs edərək qeyd edib ki, ölkə başçısı tərəfindən ölkədə bütün sahələri əhatə edən kompleks xarakterli və sistemli islahatların həyata keçirilməsi, istər əhalinin rifahının artırılması, istər siyasi sistemin yeni konfiqurasiyasının formalaşması, istərsə də kadr potensialının gücləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Natiq çıxışında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüzün bərpa olunması, torpaqlarımızın düşmən tapdağından azad olunmasının tariximizin şanlı səhifəsi olduğunu bildirib və bu möhtəşəm zəfərin qazanılmasında xalq-iqtidar-ordu birliyinin müstəsna xidmətlərini qeyd edib.

Çıxış edənlər Milli Məclisin üzvləri Naqif Həmzəyev və Vüqar İsgəndərov Azərbaycanın diplomatiya sahəsində 2003-cü ildən bəri keçdiyi uğurlu inkişaf yoluna diqqəti yönəldərək Prezident cənab İlham Əliyevin yüksək liderlik məharətinin eyni dərəcədə xarici siyasət sahəsində də özünü büruzə verdiyini qeyd ediblər. Onun xarici siyasət doktrinasının beynəlxalq iştirakçılığın gücləndirilməsi, Azərbaycana yeni dostlar qazandırılması, diplomatiyada hücumçu taktikaya üstünlük verilməsi, beynəlxalq təşəbbüskarlığın artırılması ilə nəticələndiyini vurğulayıblar.

Daha sonra çıxış edənlər YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Mexanika-riyaziyyat fakültəsinin dekan müavini Etibar Əhmədov, BDU Tələbə Gənclər Təşkilatının sədri Nicat İsmayılov ölkə başçısı tərəfindən uğurla həyata keçirilən gənclər siyasətindən bəhs edib, Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəslədiyi, ölkəmizdə onlara yüksək şərait yaradılması istiqamətində dövlət proqramlarının qəbul edildiyini, gənclərin ölkə başçısının ətrafında sıx birləşərək möhtəşəm zəfərlərə imza atdığını diqqətə çatdırıblar.

# "Böyük Azərbaycan şairi Nizami Gəncəvi və Şərq-Qərb ədəbi-mədəni irsi" mövzusunda Beynəlxalq elmi konfrans



***Dekabrın 23-də Bakı Dövlət Universiteti və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının birgə təşkilatçılığı ilə "Böyük Azərbaycan şairi Nizami Gəncəvi və Şərq-Qərb ədəbi-mədəni irsi" mövzusunda Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.***

Konfransda Heydər Əliyev Fondunun hazırladığı Azərbaycanın əsrarəngiz gözəlliklərini əks etdirən video təqdim olunub.

Açılış mərasimində BDU-nun rektoru Elçin Babayev çıxış edərək elmi konfransın işinə uğurlar arzulayıb. Qeyd edib ki, 2021-ci ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2021-ci ili ölkəmizdə "Nizami Gəncəvi İli" elan edilib. Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığının fəlsəfi fikir tarixində rolundan bəhs edərək Nizami irsinin sadəcə ədəbiyyat deyil, eyni zamanda musiqi, memarlıq, ictimai-siyasi düşüncənin inkişafına da təkan verdiyini diqqətə çatdırıb. Nizami Gəncəvinin kamil insan, ədalətli hökmdar modeli haqqında fikirlərinin onun "Xəmsə"sində əsas xətti təşkil etdiyini qeyd edib.

Rektor BDU və M.V.Lomonosov adına MDU-nun Bakı Filialının birgə təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan və xarici ölkə alimlərinin Nizami dühasından bəhs edən maraqlı məruzələrin dinləniləcəyini bildirib.

Açılış mərasimində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının Humanitar elmlər kafedrasının professoru Nazim Səfərov çıxış edərək akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Böyük Britaniyada ingilis dilində nəşr olunmuş, məşhur şərqşünas-alim Yevgeni Bertelsin "The Great Azerbaijani Poet, Nizami. Live, Work and Times" kitabı haqqında məruzə edib. Qeyd edib ki, Azərbaycanı, Qafqazı və Orta Asiyanı öyrənən Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri, akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bu akademik elmi əsərin dünya elm adamlarının ixtiyarına verilməsi mümkün olub. Kitab üçün illüstrasiyaların orijinalları dünyanın ən qədim kitabxanalarından götürülüb və kitab keyfiyyətli şəkildə çap edilib. 2013-cü ildə akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə Oksford Universitetində yaradılan Mərkəz Birləşmiş Krallıqda Azərbaycanı hərtərəfli, sistemli öyrənən ilk və yeganə elmi-akademik qurumdur.

Mərasim bədii hissə ilə davam edib.

# “XXI əsrin yeni çağırışları və hüquq sahəsində inkişafın müasir tendensiyaları” mövzusunda Beynəlxalq elmi konfrans başlayıb

***Dekabrın 21-də Hüquq fakültəsi, Halle Vittenberq Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti, Vilnüs Universiteti, Fransanın Lion2 Universitetinin birgə təşkilatçılığı ilə BDU-da “XXI əsrin yeni çağırışları və hüquq sahəsində inkişafın müasir tendensiyaları” mövzusunda Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.***





Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, vətənin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Odlar yurdu Azərbaycanın əsrarəngiz gözəlliklərini əks etdirən video-təqdimat və BDU-nun infoturu təqdim edilib.

Açılış mərasimində BDU-nun rektoru Elçin Babayev giriş sözü ilə çıxış edərək elmi konfransın işinə uğurlar arzulayıb. Qeyd edib ki, BDU-nun Hüquq fakültəsi fəaliyyət göstərdiyi müddətdə minlərlə yüksəkixtisaslı hüquqşünas kadr yetişdirərək respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət təşkilatlarını hüquqşünas kadrlarla təmin edib. Hüquq fakültəsi respublikada hüquq elminin inkişafında və hüquq üzrə elmi-pedaqoji kadrların hazırlanmasında əsas aparıcı mərkəzdir. BDU-nun Hüquq fakültəsi Azərbaycan hüquq elminin ən aparıcı və köklü hüquq təhsil mərkəzi kimi həmişə özündə kifayət qədər elmi potensialı cəmləşdirib. Fakültə son dövrlər dünyanın nüfuzlu elm-təhsil mərkəzləri ilə sıx əlaqələr yaradıb, bu əlaqələr tədrisin keyfiyyətinin və elmi səviyyəsinin daim yüksəldilməsinə xeyli dərəcədə müsbət təsir göstərib.

Elçin Babayev əlavə edib ki, konfransın keçirilməsi Bakı Dövlət Universitetinin həyatında mühüm hadisədir və bu, elmi tədqiqatlar prosesinin yaxşılaşdırılmasına öz töhfəsini verəcək, gələcək səmərəli iş üçün stimul yaradacaq. BDU-nun professor-müəllim heyəti, ölkəmizin tanınmış hüquqşünasları ilə yanaşı konfransda xarici dövlətlərin - Türkiyə, Almaniya, Fransa, Litva, Moldova, Rusiya, Belarus, Ukrayna, Qazaxıstan, Özbəkistan dövlətlərinin nüfuzlu hüquqşünasalimləri də iştirak edib.

Açılış mərasimində Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahid Bağçı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov, Ukraynanın Kiyev Hüquq Universitetinin rektoru Yuri Boşitski, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetinin rektoru İslambek Rüstəmbekov, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, Litvanın Vilnüs Universitetinin Hüquq fakültəsinin dekanı Tomas Davilius, Türkiyənin Ankara Universitetinin Hüquq fakültəsinin dekanı Muhərrəm Özən, Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetinin Hüquq fakültəsinin dekanı Daulet Baydeldinov, Türkiyənin İstanbul Universitetinin Hüquq fakültəsinin dekanı Ömər Əkməkçi, Rusiyanın Kazan Federal Universitetinin Hüquq fakültəsinin dekanı Liliya Bakulina, Ukraynanın Kiyev Milli Aviasiya Universitetinin Hüquq fakültəsinin dekanı İrina Sopilko, Türkiyənin Bolu Abant İzzət Baysal Universitetinin Hüquq fakültəsinin dekanı Şabah Kayihan və Rusiyanın Moskva Dövlət Universitetinin professoru Anatoli Belkin çıxış ediblər.

Konfransda Özbəkistanın Daşkənd Hüquq Universiteti ilə əməkdaşlıq haqqında Saziş, Almaniyanın Halle Vittenberq Universiteti ilə BDU arasında magistratura pilləsi üçün ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

Plenar iclasda Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetinin rektoru İslambek Rüstəmbekov "Postsovet məkanında hüquq elmi və təhsilinin islahatı", Türkiyənin İstanbul Universitetinin professoru Cüneyt Yüksel "İqlim dəyişikliyi ilə mübarizənin insan hüquqlarına təsiri", BDU-nun Hüquq fakültəsinin dosenti Gülnaz Rzayeva "Yeni texnologiyalar və yeni hüquqlar: əsas prinsiplər" mövzusunda məruzə ediblər.

Konfransda müasir dövrdə hüquq nəzəriyyəsi və tarixi, konstitusionalizm problemləri, beynəlxalq hüquqi standartlar: yeni istiqamətlər və milli hüquq sisteminin inkişafı, cinayət hüququnun inkişafının yeni tendensiyaları, cinayət prosesi və kriminalistikanın müasir problemləri, insan hüquqları, əqli mülkiyyət və informasiya hüququ, mülki hüquq, kommersiya hüququ və əmək hüququnun müasir problemləri istiqamətləri üzrə müzakirələr aparılıb.

## BDU ilə Almaniyanın Halle Vittenberq Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalanıb

***Bakı Dövlət Universitetində tədrisin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması və Universitetin beynəlxalq rəqabətliliyinin artırılmasına xüsusi diqqət yetirilir. Dünyanın bir sıra universitetləri ilə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi istiqamətində davamlı işlər görülür.***

BDU-da “XXI əsrin yeni çağırışları və hüquq sahəsində inkişafın müasir tendensiyaları” mövzusunda keçirilən Beynəlxalq elmi konfransının açılış mərasimində BDU-nun rektoru Elçin Babayev və Almaniyanın Martin Lüter adına Halle Vittenberq Universitetinin rektoru Kristian Titye magistratura pilləsi üçün ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi imzalayıb.

Universitetlərarası münasibətlərin perspektivləri barədə aparılan əməkdaşlığın nəticəsi olaraq Bakı Dövlət Universiteti və Halle Vittenberq Universitetinin müəllim və tələbə heyətinin elm, təhsil ehtiyaclarına böyük əhəmiyyət verərək, hüquq sahəsində ali təhsilin ixtisaslaşdırılmış sahələrinin yaradılması ehtiyacını əsas götürərək, hüquq ixtisasının peşəkar səviyyədə və yüksək səriştə ilə tədris olunmasını, habelə, sözügedən sahənin cəmiyyətdə aktuallığını nəzərə alaraq BDU-nun Hüquq fakültəsi ilə Halle Vittenberq Universitetinin Hüquq fakültəsinin magistratura pilləsində beynəlxalq iqtisadi hüquq sahəsində ikili diplom proqramı üzrə kadr hazırlığı məqsədilə əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqavilədə beynəlxalq iqtisadi hüquq sahəsində ikili diplom proqramı üzrə birgə kadr hazırlığı məqsədilə ikili diplom proqramının həyata keçirilməsi öz əksini tapıb.

## BDU və Özbəkistanın Daşkənd Hüquq Universiteti arasında əməkdaşlıq sazişi imzalanıb

***Bakı Dövlət Universiteti və Özbəkistanın Daşkənd Hüquq Universiteti arasında əməkdaşlıq sazişi imzalanıb.***

BDU-nun Hüquq fakültəsi, Halle Vittenberq Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti, Vilnüs Universiteti, Fransanın Lion2 Universitetinin birgə təşkilatçılığı ilə BDU-da keçirilən “XXI əsrin yeni çağırışları və hüquq sahəsində inkişafın müasir tendensiyaları” mövzusunda Beynəlxalq elmi konfrans çərçivəsində BDU ilə Daşkənd Hüquq Universiteti arasında hüquq sahəsində əməkdaşlıq sazişi imzalanıb.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Özbəkistanın Daşkənd Dövlət Hüquq Universitetinin rektoru İslambek Rüstəmbekov imzalayıb.

İmzalanan saziş çərçivəsində hər iki universitet birlikdə elmi tədqiqatların aparılması və hüquq sahəsində birgə elmi fəaliyyətin həyata keçirilməsi, təhsil proqramlarının, xüsusən tələbə mobilliyi proqramlarının işlənilib hazırlanması, birgə seminar, konfrans, simpozium və digər tədris və elmi tədbirlərin keçirilməsi barədə razılığa gəliblər.

## BDU və Fırat Universiteti arasında memorandum imzalanıb

***Dekabrın 24-də Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və dünya universitetləri ilə əlaqələrin genişləndirilməsi strategiyasına uyğun olaraq, Bakı Dövlət Universiteti qardaş Türkiyənin Fırat Universiteti ilə akademik əməkdaşlıq haqqında anlaşma memorandumu imzayıb.*** Sənədi BDU-nun rektoru Elçin Babayev və Fırat Universitetinin rektoru, professor Fahrettin Göktaş imzalayıb.

Memorandum təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədi daşıyır. Memoranduma əsasən, hər iki universitet arasında müəllim-tələbə mübadiləsi, layihə və proqramların işlənib hazırlanması, birgə elmi-tədqiqatların aparılması, müasir tələblərə cavab verən tədris proqramlarının hazırlanması, beynəlxalq konfransların keçirilməsi və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub.

# Professor Nəsir İmanquliyevin 110 illiyinə həsr olunmuş elmi konfrans keçirilib

*Dekabrın 28-də Bakı Dövlət Universitetində görkəmli jurnalist, tanınmış ictimai və elm xadimi, ustad redaktor Nəsir İmanquliyevin 110 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.*

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev Nəsir İmanquliyevin həyat və yaradıcılığından, jurnalistika fəaliyyətindən söhbət açaraq, bugünkü Azərbaycan jurnalistikasının formalaşmasında N.İmanquliyevin əvəzsiz xidmətləri haqqında danışıb. Bildirib ki, sovet dövründə milli jurnalistika məktəbinin formalaşmasında, gənc jurnalistlərin yetişməsində özünəməxsus rol oynamış N.İmanquliyev böyük çətinliklər bahasına cəmiyyətin maariflənməsinə, eyni zamanda mətbuatın inkişafına öz töhfələrini verib. Sevindirici haldır ki, onun gördüyü işlər, həyata keçirdiyi tədbirlər, yetişdirdiyi ziyalılar bu gün də yaşayır. Bu isə onu deməyə əsas verir ki, Nəsir İmanquliyev öz əməllərilə əbədiyyət qazanıb. 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərən böyük ustad təxminən 50 ildən artıq bir müddətdə Azərbaycanda jurnalist kadrların yetişdirilməsinə böyük əmək sərf edib.

Sonra BDU TV-nin professor Nəsir İmanquliyev haqqında hazırladığı videoçarx nümayiş olunub.



Daha sonra böyük alimin Jurnalistika fakültəsində dərs dediyi tələbələri və görkəmli jurnalistlər - Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, Milli Məclisin üzvü, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas, AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Teleradio Akademiyasının rektoru Telli Pənahqızı, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Əməkdar jurnalist Flora Xəlilzadə, professorlar Qulu Məhərrəmli, Allahverdi Məmmədli, Əməkdar jurnalistlər İlqar Həsənov, Tahir Aydınoğlu, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, ustad sənətkarın yaradıcılığının tədqiqatçısı Şəraf Cəlilli çıxış ediblər. Çıxışlarda Nəsir İmanquliyevin ötən əsrin 60-90-cı illərində mətbuat tarixində böyük rol oynamış “Bakı” və “Baku” qəzetlərinin yaradıcısı və 30 ildən artıq baş redaktoru kimi fəaliyyətindən, qəzetin həmmüəllifləri sırasında Azərbaycanın bütün sahələrində fəaliyyət göstərən korifeylərin çıxış etməsindən, görkəmli alimin çoxsaylı xidmətlərindən, Nəsir müəllim peşəkar jurnalist kadrlar yetişdirməsindən söz açılıb. Natiqlər N.İmanquliyevin elmi-pedaqoji, həmçinin qəzet redaktoru kimi fəaliyyətindən danışaraq, onun öz dövrünün bir çox jurnalistləri üçün yüksək nümunə olduğunu söyləyib, ədiblə bağlı xatirələrini bölüşüblər.

# Professor Qulu Məhərrəmlinin “Yeni alınma sözlər lüğəti” kitabının təqdimatı keçirilib

***Dekabrın 23-də Jurnalistika fakültəsində “Ana dilinin tədrisi məsələləri” mövzusu çərçivəsində Multimedia və elektron kommunikasiya kafedrasının professoru Qulu Məhərrəmlinin “Yeni alınma sözlər lüğəti” kitabının təqdimatı keçirilib.***




Tədbiri giriş sözü ilə açan elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva iştirakçıları salamlayıb, müəllifin Azərbaycan jurnalistikasındakı rolu, elmi-pedaqoji fəaliyyəti, dilçilik sahəsindəki xidmətlərindən bəhs edib, yeni ərsəyə gələn kitab barədə tədbir iştirakçılarına məlumat verib. O bildirib ki, kitaba son 25-30 ildə Azərbaycan dilinin leksik fonduna daxil olmuş ictimai-siyasi, iqtisadi, sosial-mədəni, texniki, texnoloji və s. müxtəlif sahələrdə gedən proses və tendensiyaları özündə əks etdirən yeni alınma sözlər daxil edilib.

Ardınca söz Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Allahverdi Məmmədliyə verilib. O professorun dilçiliyə dair tədqiqatlarında 4 əsas istiqamətin yer aldığını iştirakçıların diqqətinə çatdırıb: efir dilinin aktual problemləri, KİV və kommunikasiya dili, nitq mədəniyyəti və şifahi ədəbi dil məsələləri, leksikoqrafiya və lüğətçilik problemləri. Yeni kitabın bunlardan sonuncu istiqamətə uyğun gəldiyini bildirən A.Məmmədli çıxışında tanınmış filoloq və dilçi alimlərin Qulu Məhərrəmli barədə fikirlərinə də yer verib.

Təbdirdə çıxış edən Dövlət Tərcümə mərkəzinin informasiya departamentinin rəhbəri Yaşar Əliyev təqdim olunan kitabın əhəmiyyəti barədə danışıb və müəllifə yeni uğurlar arzulayıb.

Daha sonra Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev kitab və müəlliflə bağlı təəssüratlarını bölüşərək, vəsaitin tələbələrinstolüstü kitabına çevriləcəyinə əminliyini ifadə edib.

Tədbirdə çıxış edən Jurnalistika fakültəsinin professoru Nəsiman Yaqublu, müəllimlər Vəfa İsgəndərova, Arzu İsayeva fikirlərini bölüşüb, Qulu Məhərrəmliyə belə lazımlı bir kitab ərsəyə gətirdiyi üçün təşəkkürlərini bildiriblər.

Sonda Qulu Məhərrəmli çıxış edərək kitabın ərsəyə gəlmə tarixçəsi və gələcək yaradıcılıq planları barədə danışıb, tələbələrə və kitabdan istifadə edənlərə uğurlar arzulayıb.

# Unibank nümayəndələri BDU-da təlim keçib

***Dekabrın 23-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla əlaqə sektoru və “Unibank”in birgə təşkilatçılığı ilə BDU-nun IV kurs tələbələri üçün təlim keçirilib.***

“İnkişaf olunan təfəkkür və liderlik” mövzusunda keçirilən təlimdə çıxış edən sektorun əməkdaşı İlkin Şərifov Universitetdə həyata keçirilən karyera inkişafı haqqında iştirakçılara məlumat verib. Tələbələrin əmək bazarının tələblərinə uyğun olaraq hazırlanması üçün Universitetdə aparılan çoxşaxəli layihələrdən danışıb.

Unibankın İnsan resursları departamentinin müdiri Natalya Sandler, təşkilatın inkişaf meneceri Viktoriya Hüseynova, hüquqşünas Əfqan Baxışov, Biznesin inkişafı şöbəsinin müdiri Samir Mustafayev mövzu ilə bağlı çıxış ediblər.

Sonda tələbələrin suallarıcavablandırılıb.



# BDU-nun komandası “Zəfər Gününə” həsr edilmiş futbol yarışlarında III yeri qazanıb



*Dekabr 23-də Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən Ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında “Zəfər Gününə” həsr edilmiş futbol yarışlarına yekun vurulub.*

Yarşlarda 22-si Bakı şəhəri, 11-i regionlardan olmaqla ümumilikdə 33 ali və orta ixtisas təhsili müəssisələrinin komandaları mübarizə aparıb, 500-ə yaxın tələbə iştirak edib. Azərbaycan Texniki Universitetinin idman zalında baş tutan final qarşılaşmasında Bakı Dövlət Universitetinin komandası III yeri qazanıb. Yarışlar yarımqrup oyunları, pley-off, yarımfinal və final mərhələləri üzrə təşkil edilib. Sonda yarışlarda fərqlənən 4 tələbə futbolçu isə “Ən yaxşı qapıçı”, “Ən məhsuldar oyunçu”, “Ən intizamlı oyunçu” və “Ən yaxşı oyunçu” nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, I, II, III yerləri tutan komandalar diplom, kubok və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

# BDU-da "Ələsgərəm, hər elmdən halıyam..." adlı ədəbi-bədii gecə keçirilib

***Bu il Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, böyük saz və söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi qeyd olunur. Sənətkarın yubileyinin ölkə miqyasında geniş qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvafiq Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm işlər görülür. Bu mənada, Bakı Dövlət Universitetinin indiyədək reallaşdırdığı layihələr xüsusi qeyd olunmalıdır.***

Universitetin 2021-ci il üzrə tədbirlər planına uyğun olaraq Dekabrın 7-də növbəti tədbir - Mədəniyyət-yaradıcılıq Mərkəzi və Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə "Ələsgərəm, hər elmdən halıyam..." adlı ədəbi-bədii gecə keçirilib.

BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev çıxış edərək Aşıq Ələsgərin 200 illik yubileyinin ölkəmizdə geniş qeyd edilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncam imzalamasını Aşıq Ələsgər yaradıcılığına və bütövlükdə aşıq sənətinə verilən yüksək qiymətin və dövlət qayğısının bariz nümunəsi olduğunu deyib. BDU-da Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar keçirilmiş tədbirlər haqqında məlumat verib.

Azərbaycan Aşıqlar Birliyinin sədri, professor Məhərrəm Qasımlı, Milli Məclisin üzvü Naqif Həmzəyev Aşıq Ələsgər sazının və sözünün qüdrətindən, yubileylə bağlı həyata keçirilən tədbirlərdən söz açıb, yubiley tədbirlərinin ilin sonunadək davam edəcəyini, Bakıda Aşıq Ələsgərin abidəsinin ucaldılacağını bildiriblər.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin təqdimatında bədii hissə ilə davam edib. Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı, xanəndə, Azərbaycan Dövlət Televiziyasının solisti Malik Həsənov, Aşıq Raminin ifasında Aşıq Ələsgərin şeirlərinə bəstələnmiş musiqi nömrələri təqdim olunub.

Sonda Aşıq Ələsgərin nəticəsi, "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli böyük söz ustadının Azərbaycan aşıq sənətindəki yerindən və rolundan söhbət açıb, saz-söz sənəti ilə bağlı bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb. İctimai Birlik adından BDU-nun rektoru Elçin Babayevə Fəxri Diplom təqdim edib, Aşıq Ələsgərin şeirlərdən ibarət, yeni nəşr olunmuş kitabları Universitetə hədiyyə edib.

# "Milli qəhrəmanlarımız - Mübariz İbrahimov"



***Dekabrın 3-də Hüquq fakültəsinin təşkilatçılığı ilə "Milli qəhrəmanlarımız - Mübariz İbrahimov" adlı onlayn disput keçirilib.***

Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimovanın moderatorluğu ilə keçirilən tədbirdə fakültənin dekanı vəzifəsini icra edən Cabir Quliyev, İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının müdiri Əmir Əliyev, Mülki hüquq kafedrasının müdiri Məhəbbət Dəmirçiyeva, Cinayət prosesi kafedrasının müdiri Firuzə Abbasova, dosent Şükür Yusifov çıxış edib.

Çıxışlarda Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun qazandığı tarixi qələbənin əhəmiyyəti, Vətən müharibəsində qazanılan qələbənin ölkənin uğurlu inkişafının nəticəsi olduğunu vurğulanıb, Azərbaycanın bu möhtəşəm zəfəri Ali Baş Komandanın müdrik qərarları, rəşadətli ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi sayəsində qazandığına diqqət çəkilib. Milli qəhrəmanlarımızın daim qəlbimizdə yaşayacağını, onların xatirəsinin hər zaman əziz tutulacağını qeyd edilib. Daha sonra fakültənin məzun qaziləri Babək Hacılı və Şamo İsabəyli çıxış edib. Onlar Milli qəhrəmanlar Zaur Zeynalov, Allahverdi Bağırov və Mübariz İbrahimov haqqında danışıb, müharibə dövrü ilə bağlı xatirələrini bölüşüblər.

Sonda fakültənin tələbələri Aytəkin Qurbanlı və İlkin İmanlı "Qəhrəmanlar unudulmur: fərqli talelərin oxşar zirvəsi" və "Vətən qəhrəmanları ilə tanınar" mövzularında danışıblar.



# BDU-nun tələbə kollektivi şəhid məzun Şamil Nəcəfovun ailəsini ziyarət edib

***Dekabrın 28-də Tələbə Gənclər Təşkilatının üzvləri BDU Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin şəhid məzunu Şamil Nəcəfovun ailəsini ziyarət ediblər.***

Ziyarətdə BDU Tələbə Gənclər Təşkilatının sədri Nicat İsmayılov, sədr müavini Ələkbər Həsənov və Kimya fakültəsi üzrə TGT sədri Əli Qədirli iştirak ediblər. Şəhidin valideynləri Şamil haqqında xatirələrini bölüşüb, onu Vətənə layiq övlad kimi böyütdükləri üçün fəxr etdiklərini bildiriblər. Daha sonra tələbələr şəhid Şamil Nəcəfovun məzarını ziyarət ediblər.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsinin ilk günlərində döyüşə atılan Şamil Nəcəfov 2020-ci il oktyabr ayının 1-də Murov istiqamətindəki döyüşlərdə şəhid olub. Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamları ilə "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

# Müəllimlər müəllimi

***Dekabrın 17-si Azərbaycanın görkəmli alimi və mətbuat tədqiqatçısı, Ali Media Mükafatı laureatı, jurnalist Şirməmməd Hüseynovun doğum günüdür***

***Müəllim – öyrədən, dərs verən deməkdir. Həm də elə öyrədənə müəllim deyirlər ki, onun verdiyi dərs öyrənən üçün bir ömür boyu həyat kredosuna çevrilə bilir.***

Şirməmməd Hüseynov bu mənada həqiqi müəllim, həqiqi öyrədəndir, müəllimlər müəllimidir. Tələbəsi olmayanların belə ona hər zaman "müəllim", "ustad" deyə xitab etməsi də bunun göstəricisidir. Böyük bir jurnalist və ziyalı nəsli Şirməmməd müəllimi özünə müəllim, ustad kimi qəbul edib və sevib.

Bəs Şirməmməd Hüseynovu müəllim kimi sevdirən nə idi? Bu sualın cavabında onun tələbəsi olmuş hər bir şəxs, ilk növbədə, novatorluq amilini fərqləndirir. Bu, sovet dövründə də belə olub, sonrakı dövrdə də. Çünki o, auditoriyalarda hər zaman yenilikçi ruhu ilə seçilməyi bacarıb. Verdiyi dərslər, oxuduğu mühazirələr, etdiyi maraqlı və bəzən mövzudankənar, heç bir kitabda olmayan söhbətlər dinləyicidə dərin təsir buraxa bilib. Xüsusi mimika və jestlər, nitqində tez-tez işlətdiyi "Bildin də nə deyirəm?" cümləsi onun mühazirələrinə əlavə güc və şirinlik qatırdı.

Şirməmməd müəllim, eyni zamanda, dövrün çağırışları ilə ayaqlaşmağı bacarırdı. İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə gənc nəsildə maraq oyatmaq elə də asan iş deyildi. Pedaqoqdan daim öz üzərində işləmək, yeniliklərə açıq olmaq, həm də ixtisası ilə bağlı dərin biliyə malik olmaq zərurəti yaradırdı. Şirməmməd Hüseynovda sadalananlar hamısı özünə yer tapmışdı. Elə bu səbəbdən idi ki, o, auditoriyanın diqqətini cəlb etməyi bacarırdı. Onun dərslərində kiminsə sıxıldığını, zəngin tez vurulmasını gözləməsini görməzdik. Dərs o qədər gözəl keçirdi ki, vaxt sanki bir göz qırpımında gedirdi. Eyni hal universitetdə işlədiyim müddətdə də təkrarlanırdı. Tələbə olarkən Şirməmməd müəllimin dərslərinə hansı həvəslə qoşulurduqsa, müəllim olduğum dövrdə ustad dərslərini də eyni maraqla dinləmişik.

Şirməmməd Hüseynovu sevdirən digər bir məsələ onun tədqiqatçılığı idi. Müəllimliklə yanaşı, tədqiqatı da gözəl şəkildə aparmağı bacarırdı. O, təmizlik, mənəviyyat mücəssəməsi idi və bu keyfiyyətləri istər sovet dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı illərdə hər zaman şərəflə daşımağı bacardı. Şirməmməd Hüseynov həm də böyük bir ənənənin - XIX əsrin sonu XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənənin davamçısı idi. Şirməmməd müəllimin elmi və publisistik yazıları klassik mətbuat yazarlarımızla müasir dövrümüz arasında bir körpü rolunu oynayırdı. Həmin dövrün ziyalılarının həyat və fəaliyyətini bizə yeni tərzdə, yeni təqdimatda çatdırırdı. Özünün də dediyi kimi, bir növ həmin şəxsiyyətlərlə söhbət edirdi. O, qurucu babalarımız, xüsusən də Azərbaycan Xalq Cümhuriyyətini yaradan və yaşadan insanların mənəvi davamçısı kimi ömür sürməyə çalışdı və deyərdim ki, buna nail ola bildi.

Şirməmməd müəllim həm də həyat müəllimi idi. Onun davranışını, hər bir hərəkətini də özlüyündə bir dərs saymaq olar. Mən onu hər sahədə özümə ustad, müəllim hesab edirəm. Bir çoxlarından fərqli olaraq, həm də həyat müəllimi kimi onu özümə nümunə seçmişəm. Qeyd edim ki, onunla həm arxivin tozunu udmuşuq, həm yol yoldaşı olmuşuq, həm də yeməyimizi bölüşmüşük. Bunların hər birində də ondan daim nələrsə öyrənmişəm: piyada gəzməyə üstünlük vermək, yeməkdən dərhal sonra işləməyib 15 dəqiqə yürümək, yarım saatlıq iş prosesindən sonra fasilə vermək, gözləri bir müddət yaşıllığa zilləmək və s. Ən əsası isə ondan elmə, tədqiqatçılığa həvəs, müəllim peşəsinə sevgi öyrənmişəm. Təsadüfi deyil ki, Şirməmməd müəllimdən öyrəndiklərim hər zaman köməyimə gəlib. Bunun faydasını istər hər hansı bir tədqiqat işi ilə məşğul olarkən, istərsə də fakültədə bir sıra fənlərin xüsusən "Əski Azərbaycan yazısı" fənninin tədrisində görmüşəm.

Artıq üç ildir ki, professor Şirməmməd Hüseynovun doğum gününü onsuz qeyd edirik. Amma bir təsəllimiz var ki, cismən bizimlə olmasa da, onun fikir və ideyaları daim bizimlədir. Ruhun şad olsun, böyük ustad, böyük müəllim və müəllimlər müəllimi!

***Samir Mirzəyev,***
*Jurnalistika fakültəsi,*
*Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini*

# BDU Elmi Şurasının növbəti iclası keçirilib

***Dekabrın 28-də Bakı Dövlət Universiteti Elmi Şurasının növbəti iclası keçirilib. İclasda 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının keçirilməsi haqqında qərar qəbul edilib.***



İmtahanlar Azərbaycan Respublikası təhsil nazirinin 2021-ci il 10 dekabr tarixli F-570 nömrəli əmrinə müvafiq olaraq 2022-ci il 5 yanvar tarixindən etibarən əyani formada təşkil ediləcək.

COVID-19 pandemiyasının mənfi təsirlərinin azaldılması, BDU-da imtahanlararası növbəliliyin gözlənilməsi, sıxlığın aradan qaldırılması məqsədilə:

- bakalavriat səviyyəsinin I kursunda təhsil alan tələbələr üçün humanitar fənn blokuna aid olan “Azərbaycan dilində işgüzar kommunikasiya” və “Xarici dildə işgüzar kommunikasiya” fənləri üzrə imtahanların şifahi formada cədvəl üzrə müəyyən olunmuş günlərdə saat 14:00-18:00 aralığında təşkil ediləcək;

- II, III, IV kurslarda payız semestrində tədris olunan fənlərdən yalnız biri üzrə imtahan şifahi formada, əvvəlcədən təyin olunmuş günlərdə saat 14:00-18:00 aralığında təşkil ediləcək. Bu fənlər fakültə Elmi Şuralarının qərarı ilə müəyyən ediləcək.

- Bakalavriat səviyyəsinin bütün kurslarında yazılı imtahanlar əvvəlcədən təyin olunmuş günlər üzrə saat 10:00-13:00 aralığında təşkil ediləcək.

Magistratura səviyyəsinin I və II kurslarında bütün imtahanlar yazılı formada və əvvəlcədən təyin olunmuş günlər üzrə saat 14:00-18:00 aralığında təşkil olunacaq.

2021/2022-ci tədris ilinin payız semestrində onlayn və ənənəvi dərslərdə texniki səbəbdən, eləcə də xəstəliklə əlaqədar olaraq iştirak edə bilməyən tələbələrin müraciətlərinə onların təqdim etdikləri sənədlərə uyğun olaraq fərdi qaydada baxılacaq.

Elmi Şuranın iclasında həmçinin BDU əməkdaşlarının əməkhaqlarının qaldırılması haqqında qərar qəbul edilib.

# “Çıxış üçün mətnin düzgün qurulması”

***Dekabrın 21-də Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə BDUTEDx CLUB-un növbəti təlimi keçirilib.***

Təlimçi Leyla Yaqublu “Çıxış üçün mətnin düzgün qurulması” mövzusunda çıxış edib. Leyla Yaqublu maraqlı müzakirə və fikir mübadiləsi nəticəsində auditoriyaya düzgün mesajın ötürülməsinin formalarından bəhs edib. Hazırlanacaq mətnin üslubunun, janrının, bədii və elmi əsərin bəsitliyinə, kamilliyinə, dərinliyinə xüsusi diqqət yetirməli olunan məqamlara toxunub. Nəzəri və praktiki hissələri xüsusi vurğulayıb. Təlim çərçivəsində hazırlanan mətn haqqında çıxış edərkən özgüvənli duruşun tənzimlənməsi, bədən dilinin əsası olan əllərdən çıxış zamanı necə istifadə edilməli olduğu və düzgün göz kontaktının əsasları haqqında danışıb.

Mətnin əlaqələnməsində sözlər ilə yanaşı, cümlələrin də əsasən eyni quruluşda olmasının vacibliyi barədə məlumat verib.

Təlim interaktiv şəkildə və qarşılıqlı fikir mübadiləsi əsasında aparılıb, təlimçi tələbələrin çoxsaylı suallarını cavablandırılıb.

# “BDU Könüllüləri” Biznes marafonunda iştirak edib

***Dekabrın 21-də “BDU Könüllüləri”nin və Coğrafiya fakültəsinin birgə təşkilatçılığı ilə “Panda School“ brendinin təsisçisi, “Dadashsoy Business School”un rəhbəri, biznes təlimçi Elvin Dadaşsoyun təqdimatında Biznes marafonu keçirilib.***

Tədbirdə biznes-ideyanın yaradılması, biznes-planların tərtib edilməsi, bu sahədə beynəlxalq təcrübə, maliyyə planlarının hazırlanması, innovativ texnologiyaların tətbiqi, yeni məhsul istehsalının və yeni xidmətlərin göstərilməsinin təşkili, peşə hazırlığı səviyyəsinin yüksəldilməsi barədə ətraflı məlumat tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sıfırdan biznes qurmadan öncə öyrənilməsi vacib olan məqamlar ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir tələbələrin mövzu ilə bağlı suallarının cavablandırılması ilə yekunlaşıb.

# "Mədəniyyət paytaxtı - Şuşa" adlı tədbir keçirilib

***Dekabrın 20-də Tələbə Həmkarlar İttifaqı Komitəsnin təşkilatçılığı ilə Sosial elmlər və psixologiya fakültəsində "Mədəniyyət paytaxtı-Şuşa" adlı tədbir keçirilib.***

Tədbirdə THİK-nin fakültə sədri Rza Bağırov çıxış edərək gözəl diyarın, dilbər guşəmizin müxtəlif təbii zənginliklərlə dolu olduğunu vurğulayıb, işğaldan azad edilmiş Şuşanın bundan sonra dünyanın ən füsunkar məkanlarından birinə çevriləcəyini qeyd edib. Rza Bağırov çıxışında qeyd edib ki, 30 illik yurd həsrətindən sonra, müzəffər Ali Baş Komandanımızın, Vətən müharibəsində 3 minə yaxın verdiyimiz şəhidlərimizin rəşadəti sayəsində Şuşaya-ana yurdumuza qayıtdıq və qürurluyuq.

Daha sonra çıxış edənlər fakültənin II kurs tələbəsi Leyla Rəcəbzadə və I kurs tələbəsi Tənzilə Abbaslı Şuşa şəhərinin Azərbaycanın tarixi-mədəni və ictimai-siyasi həyatında rolu, həmçinin Şuşanın muğam beşiyi, milli musiqi və poeziya mədəniyyətinin qədim abidəsi olduğunu vurğulayıblar.

Tədbirdə Azərbaycan xalqının dahi bəstəkarı, Şərqdə ilk operamizin banisi Üzeyir Hacıbəyli, Vokal sənətinin müəllimi Bülbül, istedadlı şəxsiyyət, xeyirxah əməlləri ilə tanınan Xurşidbanu Natəvan, qoşmaları ilə dövrün seçilmiş ustadlarından olan Molla Pənah Vaqif haqqında tələbələrin çıxışları dinlənilib.

Tədbirdə həmçinin tələbələrin ifasında "Şuşanın dağları" mahnısı ifa olunub, "O olmasın, bu olsun" filmindən səhnəciklər nümayiş etdirilib. Tədbir "Şən Azərbaycan" musiqisi ilə yekunlaşıb.

# “Müsahibə etiketi” mövzusunda təlim keçirilib

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində Beynəlxalq münasibətlər kafedrasının təşkilatçılığı ilə beynəlxalq münasibətlər ixtisasında təhsil alan tələbələr, magistr və doktorantlar üçün “Müsahibə etiketi” mövzusunda təlim keçirilib.



Təlimdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin şöbə müdiri Günay Rəhimova tələbələrə CV-nin tərtib olunması, müsahibə zamanı davranış qaydaları, nitq mədəniyyəti, bədən dili və digər etiket qaydaları haqqında geniş məlumat verib.

Təlim diskussiya şəklində davam edib və iştirakçıların real ictimai həyatda rastlaşacaqları müəyyən situasiyalar, onlardan çıxış yolları interaktiv şəkildə müzakirə edilib. 2 saat davam edən təlim iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Gənc diplomatlar XİN ilə fakültə arasında bu cür maarifləndirici təlimlərin mütəmadi olaraq keçirilməsini təklif ediblər.

Təlim iştirakçıların çoxsaylı suallarının cavablandırılması ilə başa çatıb.

# BDU-da parlament debatı təşkil olunub

***Dekabrın 20-də Bakı Dövlət Universitetinin SABAH qruplarında hüquqşünaslıq ixtisası üzrə təhsil alan III kurs tələbələri tərəfindən səhnələşdirilmiş parlament debatı təşkil olunub.***



Sosial təminat hüququ fənnini tədris edən professor Mayis Əliyev tərəfindən təşkil olunmuş parlament müzakirəsi rol oyunları metodundan istifadə edilməklə “Xeyriyyə fəaliyyəti haqqında” qanun layihəsinin müzakirəsi ilə bağlı olub. Parlament müzakirəsində bütün tələbələr fəal iştirak edərək qanun layihəsinə özlərinin fərqli və obyektiv münasibətlərini bildirib.

Sonda parlament debatı metodunun hüquq fənlərinin tədrisi prosesində tətbiqi məsələsinin geniş müzakirəsi keçirilib və tədris prosesində həmin metodun tətbiqinin əhəmiyyəti vurğulanıb.

# Professor Abuzər Xələfovun 90 illik yubileyinə həsr edilmiş elmi konfrans keçirilib

***Dekabrın 17-də Bakı Dövlət Universitetində Kitabxanaçılıq-informasiya fakültəsinin və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfovun 90 illik yubileyinə həsr edilmiş “Azərbaycanda kitabxana-informasiya fəaliyyəti üzrə kadr hazırlığı: ənənələr və müasirlik” mövzusunda Respublika elmi konfransı keçirilib.***



BDU rektorunun elm və təhsil üzrə müşaviri, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə konfransı giriş sözü ilə açaraq bildirib ki, 2021-ci ilin dekabr ayında görkəmli kitabxanaşünas alim, Əməkdar elm xadimi, “Şöhrət” və “Şərəf” ordenli, professor Abuzər Xələfovun anadan olmasının 90 ili tamam olur. Vurğulayıb ki, ölkəmizdə ali təhsilli kitabxanaçı-biblioqraf kadrların hazırlanmasında Abuzər Xələfovun müstəsna xidmətləri vardır. Məhz onun fəal iştirakı ilə 1962-ci ildə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilib, alim uzun müddət fakültənin dekanı və kafedra müdiri vəzifələrində çalışıb. Abuzər Xələfovun Azərbaycanda kitabxanaşünaslıq elminin banisi hesab olunduğunu diqqətə çatdıran natiq, alimin 500-ə yaxın əsərinin, o cümlədən fundamental monoqrafiyalarının, dərslik və dərs vəsaitlərinin çap olunduğunu qeyd edib. A.Kazımzadə professor Abuzər Xələfovun xidmətlərinin Ulu Öndərimiz Heydər Əliyev və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə qiymətləndirildiyini, alimin ali dövlət mükafatlarına, orden və medallara layiq görüldüyünü nəzərə çatdırıb. Qeyd edib ki, Abuzər Xələfovun irsinin və eyni zamanda kitabxana-informasiya fəaliyyəti sahəsində elmi-tədqiqatların əhəmiyyəti nəzərə alınaraq görkəmli alimin 90 illik yubileyi münasibətilə mühüm elmi nəticələri müzakirə etmək məqsədi ilə Respublika elmi konfransının keçirilməsi haqqında qərar qəbul olunub. Universitet rəhbərliyi adından konfransın işinə uğurlar arzulayan Aydın Kazımzadə konfransda ediləcək məruzələrin aktual mövzulara həsr olunduğunu diqqətə çatdırıb.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, Azərbaycan Respublikası Milli Məclisinin Redaksiya və nəşr işləri şöbəsinin baş məsləhətçisi Mehman Namazov, BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova çıxışlarında görkəmli alimin elmi-pedaqoji fəaliyyətindən bəhs ediblər. Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov plenar iclasda “Azərbaycanda kitabxana-informasiya fəaliyyəti üzrə kadr hazırlığının formalaşmasında Abuzər Xələfovun rolu” mövzusunda məruzə edib. Tədbirdə Kitabxanaçılıq-informasiya fakültəsininin yüksək təhsil göstəricilərinə malik olan tələbələrinə “Abuzər Xələfov Mükafatı” təqdim olunub.



Sonda alimin oğlu, BDU-nun Hüquq fakültəsinin kafedra müdiri Elçin Xələfov çıxış edərək atasının elmi irsinə, tədris-pedaqoji fəaliyyətinə verilən yüksək qiymətə görə BDU rəhbərliyinə Abuzər Xələfovun ailəsi adından minnətdarlığını bildirib.

Qeyd edək ki, konfrans işini iki gün ərzində bölmə iclaslarında davam etdirib. Konfransda ümumilikdə 40-a yaxın məruzənin dinlənilməsi nəzərdə tutulub.

# Qara Mustafayev - 90

***Dekabrın 25-də Azərbaycanın tanınmış alimi, biologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin Fəxri professoru, "Şöhrət" Ordenli mərhum professor Qara Mustafayevin 90 yaşı tamam olur.***

Qara Teyfur oğlu Mustafayev 25 dekabr 1931-ci ildə Kürdəmir rayonunda anadan olub. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Biologiya fakültəsini bioloq-zooloq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 1954-1957-ci illərdə aspiranturada təhsil alıb. 1958-ci ildə elmlər namizədi, 1985-ci ildə elmlər doktoru elmi dərəcələrini və sonra professor elmi adını alıb. 1958-1960-cı illərdə AMEA-nın Zoologiya İnstitutunda elmi işçi olub, 1960-cı ildən ömrünün sonuna qədər isə BDU-nun Biologiya fakültəsində çalışıb. Bu müddətdə o, baş müəllim, dosent, dekan müavini, dekan, professor, 1992-ci ildən Onurğalılar zoologiyası və bioekologiya kafedrasının müdiri vəzifələrində çalışıb.



Qara Mustafayev 600-dən çox elmi, 400-ə qədər publisistik məqalənin, 65 kitabın, o cümlədən 15 monoqrafiya, 14 dərslik, 28 dərs vəsaitinin müəllimi və həmmüəllifi olub. 5 telefilmə ssenari yazıb. 9 elmlər namizədi və 2 elmlər doktoru yetişdirib. O, 18 yeni elmi konsepsiya irəli sürmüş, "biotik əlaqələr" adlı təbii qanun kəşf etmişdir.

Elmdə və təhsildəki xidmətlərinə görə Qara Mustafayev bir sıra medal, fəxri fərman, diplom və digər mükafatlarla, o cümlədən Həsən Əliyev adına Ekologiya mükafatı ilə təltif olunub. Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının və Beynəlxalq Ekoenerji Akademiyasının akademiki seçilib. 2000-ci ildə "Şöhrət" Ordeni ilə təltif olunub. 2018-ci ildə BDU-nun Elmi Şurasının qərarı ilə BDU-nun Fəxri professoru seçilib.

Qara Mustafayev 35 il fasiləsiz olaraq televiziya, radio və mətbuat vasitəsilə elmi yenilikləri təbliğ edib, uzun müddət Azərbaycanın dövlət televiziyasında "Təbiəti sevənlər" verilişinin aparıcısı olub.

Qara Mustafayev 8 oktyabr 2018-ci ildə vəfat edib.

# Xalq yazıçısı Əzizə Cəfərzadənin 100 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib

***Dekabrın 29-da Kitabxanaçılıq-informasiya fakültəsi və Elmi Kitabxananın təşkilatçılığı ilə Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin 100 illik yubileyinə həsr edilmiş “Əzizə Cəfərzadə yaradıcılığı Azərbaycan nəsrində yeni mərhələ kimi” mövzusunda elmi-praktik konfrans keçirilib.***



BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov tədbiri giriş sözü ilə açaraq bildirib ki, 2021-ci ilin dekabr ayında görkəmli yazıçı Əzizə Cəfərzadənin anadan olmasının 100 ili tamam olur. 2021-ci ilin əvvəlindən başlayaraq müxtəlif qurumlarda, yaradıcı təşkilatlarda Əzizə Cəfərzadənin yubileyi ilə bağlı silsilə tədbirlərin keçirildiyini qeyd edən Mais Süleymanov görkəmli ədibin məzunu və professoru olduğu BDU-da elmi-praktik konfransın keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Əzizə Cəfərzadə irsinin Ulu Öndərimiz Heydər Əliyev tərəfindən hər zaman yüksək qiymətləndirildiyini, dövlətimiz tərəfindən görkəmli ədibin Xalq yazıçısı adına, “Şöhrət” ordeninə və Prezident fərdi təqaüdünə layiq görüldüyünü vurğulayıb. Natiq Əzizə Cəfərzadənin əsərlərinin Azərbaycanda estetik fikrin, oxucu zövqünün, mütaliə mədəniyyətinin formalaşmasında, milli özünüdərkin inkişafında mühüm rol oynadığını da qeyd edib.

Konfransda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Almaz Ülvi “Əzizə Cəfərzadənin yaradıcılığında tarixi obrazlar”, Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətini üzvü, ədəbiyyatşünas Əsəd Cahangir “Əzizə Cəfərzadə və milli özünüdərk”, BDU-nun dosenti Pərviz Kazimi “XX əsr Azərbaycan ədəbiyyatında Əzizə Cəfərzadə hadisəsi” mövzularında məruzə ediblər.

Sonda Xalq yazıçısının oğlu Turan İbrahimov çıxış edərək Əzizə Cəfərzadənin son dövrlər nəşr edilən kitabları haqqında ətraflı məlumat verib, eyni zamanda anasının yaradıcılığına verilən yüksək qiymətə görə BDU-nun rəhbərliyinə təşəkkürünü bildirib. Turan İbrahimov Xalq yazıçısı Əzizə Cəfərzadənin əsərlərinin son nəşrlərini BDU-nun Elmi Kitabxanasına hədiyyə edib.

# BDU-nun müəllimi Rusiyada keçirilən beynəlxalq layihədə iştirak edib

***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi Eldar Cəfərov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən “Gənclər Parlamentarizmi - MDB ölkələrinin əməkdaşlığı və davamlı siyasi inkişafı kimi” adlı beynəlxalq gənclər parlamenti məktəbində iştirak edib.***

“Avrasiya-Povoljye informasiya-analitik mərkəzi”, Sankt-Peterburq Dövlət Universiteti və Müstəqil Dövlətlər Birliyi (MDB) Parlament Assambleyasının Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq İnstitutunun (DİMBİ) təşkilatçılığı ilə baş tutan layihədə gənc müəllim və tələbələr MDB-nin Parlament Assambleyası və digər orqanlarında da yaxından iştirak edib, demokratik təsisatlar, yeni seçki elektoratı haqqında fikir mübadiləsi aparıb.



Beş gün davam edən gənclər parlamenti layihəsində MDB-nin iştirakçısı olan dövlətlərin Parlament Assambleyası (MDB PA) Şurası Katibliyinin rəhbəri, Baş katib Dmitri Kobitski və Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının professorları ustad dərsi keçib, gənclərin öz ölkələrinin siyasi-idarəetmə həyatında aktiv rolu müzakirə olunub.

Sonda iştirakçılar forsayt-proyekt hazırlayaraq çıxışlar edib və qaliblər sertifikat və hədiyyələrlə mükafatlandırılıb.

Layihənin əsas məqsədi MDB üzv dövlətlərinin müxtəlif ali təhsil müəssisələrinin müəllim və tələbələrini cəlb etməklə Təşkilatın aktual məsələləri haqqında gələcəkdə birgə işlər görməkdir.

# "Ağıllı ev" mövzusunda təlim



***Dekabrın 15-də BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin və BDU SABAH qruplarının birgə təşkilatçılığı ilə “Ağıllı ev” mövzusunda təlim keçirilib. Tədbirdə “Vision Academy” tədris mərkəzinin, “Elsmart” şirkətinin nümayəndələri və SABAH qruplarının tələbələri iştirak edib.***

Tədbirdə "Ağıllı ev" layihəsində proqram təminatı, texniki təchizat və onun insan həyatındakı rolundan bəhs olunub.

“Elsmart” şirkətinin baş direktoru Əli Kərimov "Ağıllı ev" layihəsi haqqında tələbələrə məlumat verib, bu layihədə evlərin təhlükəsizliyinin təşkil olunması, kommunal xidmətlərin əlverişli istifadəsi, müəyyən avadınlıqların fəaliyyətinin məsafədən avtomatlaşdırılmasına diqqət çəkib.

“Elsmart” şirkətinin nümayəndələri tələbələrin gələcək karyeraları və müharibədən sonra işğaldan azad olan torpaqlarda "Ağıllı kənd", "Ağıllı qəsəbə" layihələri haqqında danışıblar.

# “EcoPrint” layihəsinin rəhbəri: “Bakı Dövlət Universiteti Startup layihələrinə böyük dəstək verir”

***Xəbər verdiyimiz kimi, Bakı Dövlət Universitetinin “EcoPrint” layihəsinin rəhbəri, Texnologiyaların transferi və innovasiyalar şöbəsinin müdiri Mətanət Musayeva, layihə koordinatoru, Ekologiya və torpaqşünaslıq fakültəsinin Bioekologiya kafedrasının dosenti Məhluqə Yusifova, komandanın kapitanı Rüstəm Həsənli və informasiya texnologiyaları mütəxəssisi Kamran Qasımov 2021-ci il 15-18 noyabr tarixlərində Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilən “Global Startup Awards” mükafatları yarışmasının “Grand Final”ında iştirak ediblər.***

“EcoPrint” layihəsinin rəhbəri Mətanət Musayeva BDU-nun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinə müsahibəsində layihə ilə bağlı maraqlı məqamlara toxunub.

***- Mətanət xanım, “EcoPrint” layihəsinin ideyası necə yarandı?***

- 2019-cu ildə BDU-nun rektoru Elçin Babayev ilk dəfə olaraq BDU-nun Enactus yarışına qatılması haqqında sərəncam imzaladı. Layihəyə rəhbərlik mənə həvalə olundu. BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat, Coğrafiya, Tətbiqi riyaziyyat və kibernetika, Ekologiya və torpaqşünaslıq, Biologiya, Kimya, Fizika fakültələrini təmsil edən 14 tələbə, 4 məsləhətçi və 1 biznes-liderdən ibarət Enactus komandası təşkil edildi. Komandanın ümumi yığıncağında tələbələrin təklif etdikləri ideyaları müzakirə edərək ağac əkmək, yaşıllıqlar salmaqla Azərbaycanın bir sıra lokal ekoloji və sosial-iqtisadi problemlərinin həllinə nail olmağa imkan verən layihə ideyası üzərində işləməyə başladıq. Əkilən ağaclarla torpaqda ekoloji iz qoymaq məqsədimiz olduğu üçün layihə “EcoPrint” adlandırıldı.




***- “EcoPrint” layihəsinin əsas istiqamətləri hansılardır və nə kimi nəticələr gözlənilir?***

Layihə çərçivəsində əsas gözlənilən ekoloji və sosial-iqtisadi effektləri – sosial yönümlü obyektlərin (məktəb, xəstəxana, universitet, park, oyun meydançaları və s.) ətrafında ağacların əkilməsi; ekoloji fəlakətlər riski yüksək olan ərazilərdə ağacların əkilməsi; əhalinin ekoloji mədəniyyətinin formalaşması və sosial məsuliyyətinin artırılmasına nail olmaq, mümkün qədər çox sayda insanların məlumatlandırılması, layihənin davamlı surətdə genişləndirilməsi və gələcəkdə ölkənin mümkün qədər çox ərazisinin mənimsənilməsi və s.-dir.

Layihənin beynəlxalq səviyyəyə çatdırılması üçün platforma, funksional veb sayt (http://ecoprint.deirvlon.com/) yaradılmışdır.

Layihənin məqsədi ekoloji yönümlü olmaqdan başqa, həm də sosial-iqtisadi yönümlüdür. Biz ağacəkmə prosesinə həmin lokal ərazidə yaşayan sosial təminatı aşağı səviyyədə olan insanları cəlb edirik. Onlarla ağacın əkilməsi və ona qulluq edilməsi barəsində hüquqi müqavilə bağlamaqla müəyyən qədər maddi vəsait qazanmaq imkanı da yaradırıq.

BDU Enactus komandası öz sahibkarlıq fəaliyyətində Azərbaycanda davamlı inkişafın məqsədlərini həyata keçirməyə dəstək olmağı qarşısına məqsəd qoyaraq hamımız üçün daha yaxşı bir dünya yaratmağa çalışır.

***-Yarışın final mərhələsində iştirak hüququ qazandınız. Regional yarış haqqında təəssüratlarınızı bizimlə bölüşərdiniz.***

- 113 ölkənin qatıldığı bu yarışın Avrasiya üzrə yarımfinalında “Eurasian Startup Awards” yarışmasında 9 ölkə – Türkiyə, Azərbaycan, Rusiya Federasiyası, Ukrayna, Belarus, Gürcüstan, Qazaxıstan, Moldova və Ermənistandan olan layihələr 10 nominasiya üzrə yarışdı. Çox maraqlı layihələrin təqdim olunduğu gərgin yarımfinalda BDU-nun “EcoPrint” layihəsi “Best Virtual Teamwork Solution” nominasiyasında qalib gəldi. Qeyd edim ki, “The Master of All” nominasiyasında Türkiyənin “Yeşil Science”, “Startup of the Year” nominasiyasında Ukraynanın “Racoon.World”, “Best Coworking Space” nominasiyasında Gürcüstanın “Terminal” layihəsi qalib gəldi.

***- Finalda hansı nominasiyalar üzrə mübarizə apardınız?***

-“Global Startup Awards” mükafatları yarışmasının “Grand Final”ı 15-18 noyabr tarixlərində Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirildi. “Grand Final”da Central European Startup Awards, Southern Africa Startup Awards, Eurasian Startup Awards, Asean Rice Bowl Startup Awards, Nordic Startup Awards, South Europe Startup Awards regional yarışmaların qalibi olan 36 ölkədən 77 layihə iştirak edirdi.

Qeyd edim ki, “Grand Final”a vəsiqə qazanmış bütün layihələr qalib hesab olunur. Sadəcə onların arasından da “Best Winner”lər seçildi. “Grand Final”da BDU-nun “EcoPrint” layihəsi 2 nominasiya üzrə - “Best Vertical Startup” nominasiyasında 12 ölkənin, “Best Green Tech Startup” nominasiyasında isə 23 ölkənin komandaları ilə yarışdı. 10 fərqli nominasiya üzrə aparılan və çox yüksək səviyyəli layihələrin qatıldığı yarışda gərgin mübarizə nəticəsində “Best Vertical Startup” nominasiyasında Danimarkanın “Particle 3D” layihəsi, “Best Green Tech Startup” nominasiyasında Türkiyənin “Biolive” layihəsi Best Winner elan olundu.

***-Bu səfəriniz zamanı digər komandalarla müzakirələriniz oldumu?***

-Tədbirdə qlobal finalçılar “Grand Final” tədbirləri çərçivəsində Danimarkanın Yaşıl İnnovasiya Ekosistemi ilə tanış oldu, “Towards greener innovation”, “Green Leadership”, “Communicating in Green”, “A look into the Future of Green Impact Innovation”, “Making the Right Betsin Green Investments”, “Emerging Green technologies in Denmark” və s. mövzularda diskussiyalarda iştirak etdilər. Bundan başqa Danimarkada və dünyada yaşıl keçidi dəstəkləyən müvafiq maraqlı tərəfdaşlarla görüşlər keçirildi, Azərbaycanda, o cümlədən BDU-da bu istiqamətdə həyata keçirilən layihələr barəsində onlara ətraflı məlumat verildi.

***- Gələcəkdə belə layihələr davam etdiriləcəkmi?***

İlk gündən BDU-nun rəhbərliyi istər respublika, istərsə də beynəlxalq səviyyədə keçirilən StartUp layihələrə daha aktiv qoşulmağımız üçün bizə hər cür şərait yaratdı. Buna görə, Qlobal StratUp Awards kimi beynəlxalq səviyyəli tədbirdə iştirakımızın təmin olunmasında göstərdiyi dəstəyə görə Universitetimizin rəhbərliyinə dərin minnətdarlığımizi bildirir və gələcək layihələrdə daha yüksək nəticələr əldə edəcəyimizə inanırıq.

BDU-nun StartUp uğurları davam edir. Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsis etdiyi EdTech StartUp müsabiqəsinə bütün universitetlər tərəfindən ümumilikdə təqdim olunmuş 244 layihədən finala vəsiqə qazanmış 10 layihə arasında BDU-nun “SabahTech” komandasının “Təhsil müəssisələrində sənədlərin elektronlaşdırılması” layihəsi də var. Final mərhələsi bu il 10 dekabr tarixində keçiriləcək və qaliblər təyin olunacaq. Komandamıza uğurlar arzu edirəm.

***Müsahibəni hazırladı:***
***Nərminə Əsədova***

# “Universitet kitabxanalarının informasiya resurslarının modelləşdirilməsi” mövzusunda müzakirələr aparılıb

***Dekabrın 3-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə “Universitet kitabxanalarının informasiya resurslarının modelləşdirilməsi” mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarı giriş sözü ilə açan BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov bildirib ki, hazırda ali məktəb kitabxanalarının informasiya resurslarının modelləşdirilməsi beynəlxalq təcrübədə geniş yayılmışdır. O, bu sahədə dünya təcrübəsindən bəhrələnməyin vacibliyini qeyd edərək, ölkəmizdə bu istiqamətdə həyata keçirilən layihələrdən bəhs etmişdir.



Elmi seminarda BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti Rəşad Qardaşov mövzu ilə bağlı məruzə edib. Məruzədə XXI əsrdə informasiya texnologiyalarının, rəqəmsal məzmunlu informasiyaların inkişaf tendensiyasından və dinamikasından bəhs olunub, ali məktəb kitabxanalarının bu prosesdəki rolu şərh edilib. Modern universitet kitabxanasının modeli, strukturu, potensial imkanları və hədəfləri barədə məlumatlar diqqətə çatdırılıb. Universitet kitabxanalarının təhsilin və elmi tədqiqatların vahid informasiya platformasındakı rolu Amerika və Avropa ölkələrinin təcrübələri əsasında təhlil edilib.

Tədqiqatçı bəhs olunan istiqamət üzrə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının, ADA Universiteti Kitabxanasının və Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyətini tədqiqata cəlb etdiyini bildirmiş, həmin kitabxanalara göndərilmiş müvafiq sorğulara aldığı cavablar əsasında apardığı müqayisəli təhlillər, aldığı nəticələr barədə seminar iştirakçılarına məlumat vermişdir.

Rəşad Qardaşovun məruzəsi polemikalara səbəb olmuş, məruzə ətrafında geniş müzakirələr aparılmışdır. Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru, dosent Nigar İsmayılova, ADA Universiteti Kitabxanasının direktoru, texnika üzrə fəlsəfə doktoru Elçin Məmmədov, Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayeva, AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşı Aygün Səfərova, BDU-nun kafedra müdirləri Sevda Xələfova, Elçin Əhmədov məruzə ilə bağlı fikirlərini bildiriblər.

# “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid BDU-da ustad dərsi keçib

***Dekabrın 10-da Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları, magistrant və tələbələri üçün Elektron nəşrlər fənnindən "Elektron qəzetlər" mövzusunda ustad dərsi keçib.***

Rəşad Məcid əvvəlcə son dövrlər Bakı Dövlət Universitetində təşkil olunan ustad dərslərini yüksək qiymətləndirdiyini bildirib. Eyni zamanda rəhbərlik etdiyi qəzetlə BDU arasında olan əməkdaşlıqdan məmnunluğunu ifadə edib.





Rəşad Məcid mühazirəsində əvvəlcə “525-ci qəzet”in yaranması və inkişaf tarixi haqqında məlumat verərək qəzetin yeni dövrün reallıqlarına uyğun olaraq artıq uzun müddətdir ki, fəaliyyətini ənənəvi formatla yanaşı, elektron qəzet versiyasında davam etdirdiyini qeyd edib. Bildirib ki, XX əsrin 90-cı illərindən başlayaraq yeni media növü - elektron media meydana gəlməyə və formalaşmağa başlayıb. Yeni media sürətlə cəmiyyətdə öz mövqeyini möhkəmləndirib, ona böyük maraq və tələbat yaranıb, ənənəvi qəzetlər elektron versiyalarını təqdim etməyə üstünlük veriblər. Artıq ənənəvi jurnal və qəzet mütaliəsinin yerini hər an yenilənmək imkanına malik olan elektron informasiya resurslarının aldığını diqqətə çatdıran məruzəçi ölkəmizdə fəaliyyət göstərən elektron qəzetlər, onların iş prinsipləri, perspektivləri və hədəfləri barədə məlumatlar verib, bir sıra müqayisəli təhlillər aparıb. Mühazirə zamanı “525-ci qəzet”in elektron versiyasından nümunələr – mətn, illüstrasiya və videofraqmentlər nümayiş etdirilib. Mühazirədə ənənəvi qəzetlərdən fərqli olaraq, elektron media resurslarında multimedia komponentlərinin yer almasının üstünlüklərindən bəhs olunub, çağdaş dövrdə informasiyanın məzmunu ilə yanaşı, onun təqdim olunma forması, elektron qəzetlərin bədii və texniki tərtibatı kimi məsələlər şərh edilib.

Ustad dərsi auditoriya tərəfindən böyük maraqla dinlənilib, Rəşad Məcid tələbələrin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb.

# “Əmək münasibətlərinin tənzimlənməsində insan hüquqlarının rolu” mövzusunda təlim keçirilib

***Dekabrın 13-də Tarix fakültəsində “Əmək münasibətlərinin tənzimlənməsində insan hüquqlarının rolu” mövzusunda təlim keçirilib.*** Universitetin bir çox fakültələrinin tələbələrinin iştirak etdiyi tədbirdə ölkəmizdə insan hüquqlarının qorunması istiqamətində dövlət tərəfindən aparılan genişmiqyaslı tədbirlər haqqında məlumat verilib. İnsan hüquqlarının bütün sahələrdə qorunması istiqamətində, xüsusən əmək münasibətlərinin tənzimlənməsində aparılan islahatların nümünəyə çevrildiyi bildirilib.



Təlimçi, hüquq fakültəsinin müəllimi Yavər Məmmədova geniş məruzə ilə çıxış edib. Qeyd edib ki, işçilər işə daxil olduqda iş prosesində onlarla işəgötürən (təşkilat, sahibkar) arasında əmək münasibətləri yaranır. Əmək münasibətləri ilə sıx sürətdə bağlı olan digər münasibətlər də əmələ gəlir. Bu münasibətlərin xüsusiyyətləri və tənzimlənməsi barədə geniş məlumat verib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# "Layihə yazılışı və idarə olunması" mövzusunda təlim keçirilib

***Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə könüllülərin təşkilatçılığı və Azərbaycan Milli QHT Forumu Könüllüləri İctimai Birliyinin tərəfdaşlığı ilə "Layihə yazılışı və idarə olunması" mövzusunda təlim keçirilib.***



Təlimdə BDU könüllülərinin sədri Nərmin Heydərova, BDU könüllülərinin Ekologiya və torpaqşünaslıq fakültəsi üzrə sədri Leyla İmaməliyeva və MQF Könüllüləri Birliyinin sədri Nərmin Kərimova iştirak edib.

Tədbirdə layihə nədir, necə yazılır, layihələrin qiymətləndirmə və hesabatlılığı və büdcəsi, gənclər siyasəti və layihələrin müraciət prosesi haqqında Nərmin Kərimova, Qərənfil Rəhmanova, Hatəm Həzizadə geniş məlumat verib.

# “Ümumdünya QİÇS-lə mübarizə günü - QİÇS-ə yoluxmuş şəxslərin əmək münasibətlərinin tənzimlənməsi” mövzusunda tədbir keçirilib

***Dekabrın 2-də Bakı Dövlət Universitetinin Karyera və məzunlarla əlaqə sektoru “Ümumdünya QİÇS-lə mübarizə günü - QİÇS-ə yoluxmuş şəxslərin əmək münasibətlərinin tənzimləsi” mövzusunda tədbir keçirib.***

Tədbirdə sektorun əməkdaşı İlkin Şərifov QİÇS-in ümumbəşəri problem olduğunu və hər bir cəmiyyət nümayəndəsinin buna qarşı mübarizə aparmasının vacibliyini qeyd edib. QİÇS və müxtəlif yoluxucu xəstəliklərə, həmçinin dünyanı bürüməkdə olan COVID-19 virusuna qarşı mübarizənin yalnız maarifləndirmə ilə aparıla biləcəyini vurğulayıb. İ.Şərifov BDU-da bu istiqamətdə maarifləndirmə tədbirlərinin mütəmadi həyata keçirildiyini bildirib. Qeyd edib ki, Azərbaycanda səhiyyə sis-



teminin təkmilləşdirilməsi və QİÇS-ə qarşı tədbirlərə kifayət qədər sərmayənin qoyulması son bir neçə onillikdə ölkəmizdə İİV (insanın immunçatışmazlığı virusu) infeksiyasının yayılması ilə bağlı vəziyyətin sabitləşdirilməsi üçün imkan yaradıb, hazırda isə COVID-19 virusuna qarşı mübarizə tədbirlərinə dəstəyi təmin edib.

Tədbirdə çıxış edən infeksionist həkim Ləman Qalimova QİÇS xəstəliyinin tarixi və onunla mübarizə üsulları haqqında geniş mühazirə ilə çıxış edib. Profilaktik tədbirlər sayəsində tək QİÇS-in deyil, müxtəlif yoluxucu xəstəliklərin geniş yayılmasının qarşısının alındığını bildirib.

BDU-nun Hüquq fakültəsinin müəllimi Yavər Məmmədova beynəlxalq aləmdə və ölkəmizdə QİÇS xəstəliyinə yoluxan şəxslərin əmək münasibətlərinin tənzimlənməsi, bu sahədə qanunvericilik prosesi haqqında məlumat verib. Bu xəstəliyə yoluxan şəxslərin diskriminasiyaya məruz qalmamalı olduğunu vurğulayıb.

Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# “Beynəlxalq Könüllülər Günü”

***Dekabrın 6-da Hüquq fakültəsində “BDU Könüllüləri”nin təşkilatçılığı ilə Beynəlxalq Könüllülər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Hüquq fakültəsinin dekan müavini Aytəkin İbrahimova son illərdə ölkəmizdə könüllülük fəaliyyətinin yaradılması və genişlənməsindən danışıb, bu sahədə uğurlu nəticələrdən bəhs edib, Könüllülər Günü münasibətilə gəncləri təbrik edib, gələcək fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıb.***

Sonra “BDU Könüllüləri”nin rəhbəri Nərmin Heydərova könüllülük fəaliyyəti haqqında ümumi məlumat verib, tələbələrə təhsil və könüllülük fəaliyyətində uğurlar arzulayıb.

Hüquq fakültəsinin könüllülərinin sədri İlkin İmanlı BDU-da gənclərə könüllülük ideyasının aşılandığını bildirib. O, qeyd edib ki, universitetin könüllüləri il ərzində müxtəlif layihələrdə iştirak ediblər.

Hüquq fakültəsinin könüllülərindən Bahar Əlizadə “Beynəlxalq Könüllülər Gününün tarixi”, Həmidə Qasımova “Azərbaycanda könüllülük fəaliyyəti”, Röya Əlizadə “Beynəlxalq aləmdə könüllülük” və "BİR" könüllü təşkilatının BDU üzrə koordinatoru Ayxan İsgəndərov ölkəmizdəki könüllülük hərəkatından danışıblar.

# “Beynəlxalq Ərəb dili Günü”

***Dekabrın 20-də Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Şərqşünaslıq fakültəsində “Beynəlxalq Ərəb dili Günü”nə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şərqşünaslıq fakültəsinin tələbələri ərəb dilində qeyd olunan gün barədə məlumatlar təqdim etməklə, sinxron tərcümə simulyasiyasını keçiriblər.

Fakültənin dekanı vəzifəsini icra edən Tərlan Məlikov Ərəb filologiyası kafedrasının üzvləri və ərəb dili üzrə təhsil alan tələbələri əlamətdar gün münasibəti ilə təbrik edib, yaşı yüz ilə yaxın olan Şərqşünaslıq fakültəsində ərəb dilinin tədrisi tarixi, ərəbşünaslıq məktəbinin yaradıcıları, ərəbdilli mütəxəssislərin hazırlanması, semitologiyanın inkişaf yolları və əsas istiqamətləri barədə geniş məlumat verib.

Sonra Ərəb filologiyası kafedrasının müdiri vəzifəsini icra edən dosent Vüqar Qaradağlı, professor Elxan Əzizov, professor Nəsrulla Məmmədov və Mais Ağaverdiyev çıxış edərək, ərəb dilinin dünyəvi əhəmiyyəti, müsəlman dünyasında olan mövqeyi, strukturu və öyrənilməsi, dilin keçdiyi inkişaf yolu, beynəlxalq dilə çevrilməsi, bu dildə yaranan müqəddəs dini kitab olan “Qurani-Kərim”in ərəb dilinin mühafizəsi baxımından əhəmiyyəti, o cümlədən ərəb dilinin müasir problemləri barədə çıxış ediblər.

Azərbaycanşünas alim, Avrasiya Beynəlxalq Mətbuat Agentliyinin müşaviri Əhməd Sami Elaydi çıxışında ərəb dilinin Azərbaycanda vəziyyəti, ərəb dili üzrə gənc şərqşünasların Azərbaycana verə biləcəyi töhfələr barədə məlumat verib, BDU-nun Şərqşünaslıq fakültəsinin kadrların hazırlanmasında müstəsna rolundan söhbət açıb.

Tədbir tələbələrin çıxışları ilə davam edib. Fakültənin “Dilşünaslıq (ərəb dili)” üzrə I kurs magistrantı Nemət Məmmədov ərəbcə çıxış edərək, ərəb dili üzrə keçdiyi təhsil yolu, Küveytdə bir illik təhsil aldığı dövr, müəllimlərinin üzərində olan əməyi, dilin zənginliyi və strukturu barədə tələbə yoldaşlarına və iştirakçılara məlumat verib.

# Şərqşünaslıq fakültəsində İbri dili gününə həsr olunmuş elmi seminar keçirilib

***Dekabrın 24-də Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə onlayn şəkildə İbri dili gününə həsr olunmuş elmi seminar keçirilib.***

Fakültə TEC sədri və fakültənin Regionşünaslıq (İsrail üzrə) ixtisasının IV kurs tələbəsi Elnarə Həsənova ibri dilinin BDU-da tədris tarixindən, universitetin yetişdirdiyi ibrişünasların fəaliyyəti haqqında məlumat verib. Fakültədə dekan vəzifəsini icra edən Tərlan Məlikov çıxışında İbri şöbəsinin müəllim və tələbə heyətinin fəaliyyəti, tədris prosesi haqqında çıxış edib. Elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə Azərbaycan Respublikası və İsrail arasında olan münasibətlərdən, fakültə və ölkədə ibri dili üzrə aparılan tədqiqatlardan, Şərqşünaslıq fakültəsində elmi kadrların hazırlanmasından danışıb. Ərəb filologiyası kafedrasının müdiri vəzifəsini icra edən, dosent Vüqar Qaradağlı Sami-Hami dil qrupuna daxil olan ərəb və ibri dillərinin oxşar və fərqli xüsusiyyətləri barədə çıxış edib.

İbri şöbəsinin müəllimi Təranə Hüseynbalayeva, yəhudi ədəbiyyatı fənnini tədris edən dosent Gülnarə Abdullayeva, İbri şöbəsinin IV kurs tələbələri Könül Talıbova, Nərmin Əliyeva və II kurs tələbəsi Orxan Rəhimov da çıxış ediblər.

Fakültənin ibri dili müəllimi Gülər Qasımova orta əsrlərdə ibri dilçiliyinin inkişaf istiqamətləri, bu dövrdə fəaliyyət göstərən filoloqların yaradıcılığı haqqında danışıb. İbri dili ixtisası üzrə III kurs tələbəsi Aydan Məmmədova və IV kurs tələbəsi Vəli Əlizadə orta əsr dövrünün müəlliflərinin yazdığı şeirləri səsləndiriblər.

Fakültənin ibri dili müəllimi Ayxan Qarayev “İbri dilində atalar sözləri və onların dünya ədəbiyyatında yeri” mövzusunda məruzə ilə çıxış edib, fakültənin III kurs tələbəsi Nərgiz Məmmədova, II kurs tələbəsi Mustafa Kamalov və I kurs tələbəsi Firuzə Həşimova ibri dilində atalar sözləri və məsəllər səsləndiriblər.

Seminarın davamında İbri şöbəsinin magistrantı Jalə Səmədova İbri-Azərbaycan lüğətçilik sahəsində yeniliklərdən və ibri dilində tibbi terminologiya haqqında çıxış edib, hazırladığı İbri-Azərbaycan Tibbi terminlər lüğətindən fraqmentləri təqdim edib.

İştirakçılar arasında fikir mübadiləsi aparıldıqdan sonra elmi seminar işini yekunlaşdırıb.

# “Vikipediya” təlimlərində iştirak etmiş tələbələrlə görüş keçirilib

***Dekabrın 16-da Jurnalistika fakültəsində “Qorqud” Vikipediya Metodik Klubunun Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatında təşkil etdiyi təlimlərin fəal iştirakçısı olan tələbələrlə görüş keçirilib.***

Tədbiri fakültənin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev açaraq təlimləri uğurla başa vuran gəncləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Fakültədə fəaliyyət göstərən “Vikipediya” klubu haqqında məlumat verib, görülən işlərdən bəhs edib. Sonra BDU-nun Tarix fakültəsinin tələbəsi “Qorqud” Vikipediya Metodik Klubunun eksperti Sübhan Xıdırzadə təmsil etdiyi klubun gördüyü işlərdən danışıb, öz təcrübəsini tələbələrlə bölüşüb, onların suallarını cavablandırıb.

Tədbirdə fakültədə əvvəllər mövcud olmuş, pandemiya səbəbindən fəaliyyəti zəifləmiş “Vikipediya” klubunu "Qorqud" Vikipediya Metodik Klubunun təlimlərində uğurla iştirak etmiş tələbələrlə yenidən formalaşdırmaq qərara alınıb.

Qeyd edək ki, “Vikipediya” təlimlərində fəal iştirak etmiş tələbələr Milli Məclisin deputatı Elnur Allahverdiyev tərəfindən diplomla təltif olunacaqlar.



# Tarix və Filologiya fakültələrinin tələbələri Heydər Əliyev muzeyini ziyarət ediblər



***Dekabrın 2-də Bakı Dövlət Universitetinin Tarix və Filolologiya fakültələrinin I və II kurs tələbələri BDU-nun Heydər Əliyev Muzeyini ziyarət ediblər. Heydər Əliyev muzeyinin direktoru Zəkiyyə Kərimova muzey haqqında tələbələrə məlumat verərək qeyd edib ki, BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb.*** Qeyd olunub ki, muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Muzeydə Heydər Əliyevin gərgin fəaliyyəti ilə yanaşı, onun ömrünün ən incə məqamlarından bəhs edən sənədlər, fotoşəkillər, bu böyük şəxsiyyət haqqında Universitet alimlərinin yazdığı kitablar tələbələrdə böyük təəssürat yaradıb.

# "Nizami və Şərq renessansı" mövzusunda ustad dərsi keçirilib

**Şərqşünaslıq fakültəsində Beynəlxalq əlaqələr şöbəsi, Konfutsi İnstitutu, Çinin Anhui Universitetinin nəzdində fəaliyyət göstərən "Azərbaycan Mərkəzi"nin birgə təşkilatçılığı ilə "Nizami və Şərq renessansı" mövzusunda ustad dərsi keçirilib.**

Beynəlxalq əlaqələr şöbəsinin böyük mütəxəssisi Şəms Bağırovanın moderatorluğu ilə keçirilən tədbirdə Anhui Universitetinin və BDU-nun Şərqşünaslıq fakültəsinin tələbə və müəllim heyəti iştirak edib. Ş.Bağırova 2021-ci ilin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880-ci ildönümü münasibətilə "Nizami ili" elan olunmasının əhəmiyyətindən, habelə Nizami yaradıcılığından söz açıb.

Məruzəçi, Filolofiya fakültəsinin Dünya ədəbiyyatı kafedrasının müəllimi İlqar Hüseynov dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Nizaminin dünya miqyaslı şair olduğundan, Şərq poeziyasının inkişafında şairin xidmətlərindən bəhs edib. Məruzəçi şairin əsərlərini təhlil edərək Nizaminin fəlsəfi düşüncələrindən danışıb.

Tədbirin sonunda Üzeyir Hacıbəylinin Nizaminin sözlərinə bəstələdiyi "Sənsiz" qəzəli səsləndirilib. Sonda İ.Hüseynov "Nizami və Şərq renessansı" mövzusu ilə bağlı Anhui Universitetinin tələbələrinin suallarını cavablandırıb.

# Jurnalistika fakültəsində "Qələbə yolunda jurnalistlər" sənədli filminin təqdimat mərasimi keçirilib

***Dekabrın 30-da Jurnalistika fakültəsinin təşkilatçılığı ilə "Qələbə yolunda jurnalistlər" sənədli filminin təqdimat mərasimi keçirilib.***

Giriş nitqindən sonra Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının ixtisas yönümlü xarici dil fənni üzrə II kurs tələbələrinin hazırladıqları sənədli filmə baxış keçirilib. Filmdə media nümayəndələrinin Vətən müharibəsində göstərdikləri şücaət, şəhid jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun peşə fəaliyyətindən bəhs olunub.

Təqdimat barəsində təəssüratlarını bölüşən Vüqar Əliyev, Qulu Məhərrəmli, Allahverdi Məmmədli, Samir Mirzəyev, Ramin Rzayev belə layihələrin yetişməkdə olan yeni nəsil jurnalistlərin həyatında mühüm rol oynayacağına əminliklərini ifadə ediblər. Şəhid jurnalistlərin yaxınları Əsgər İbrahimov və Şirzad Abışov filmin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkür edərək, belə layihələrin davamlı olmasını arzulayıb, bu ekran işinin gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün bir vasitə olacağını ifadə ediblər.

Tədbirdə iştirak edən AzTV-nin əməkdaşları Vüsal Qaraca və Samir Oruc şəhid jurnalistlərlə bağlı xatirələrini bölüşüb və sənədli filmin ərsəyə gəlməsində zəhməti olan şəxslərə təşəkkürlərini bildiriblər.

Sonda filmi ərsəyə gətirən fənn müəllimi Günel İlqar və Jurnalistika fakültəsinin ikinci kurs tələbələri dəvəti qəbul edib təqdimat mərasiminə gəldikləri üçün iştirakçılara minnətdarlıq ediblər.

# BDU-nun professoru Beynəlxalq konfransda iştirak edib

***Tarix fakültəsinin Türk xalqlarının tarixi kafedrasının professoru Nisbət Mehdiyeva 5-6 fevral 2021-ci il tarixində Özbəkistan Dövlət Şərqşünaslıq Universitetində Əlişir Nəvainin anadan olmasının 580 illiyinə həsr olunmuş konfransında iştirak edib.*** Konfransda "Əlişir Nəvai özbək-Azərbaycan ədəbiyyatının qarşılıqlı təsir kontekstində" adlı məruzə ilə çıxış edən N.Mehdiyeva Özbək ədəbiyyatının böyük siması, söz mülkünün sultanı, dövlət xadimi dahi Nəvainin xidmətlərindən danışaraq, onun yaşadığı Herat şəhərini dövrün ən böyük mədəniyyət mərkəzinə çevirdiyini qeyd edib. Vurğulayıb ki, Nəvai yalnız elm və sənət ardınca deyil, ölkənin mədəni hala gəlməsində, sənətkarlığın və iqtisadiyyatının inkişafında böyük xidmətləri olub.

Professor Nisbət Mehdiyeva həmçinin 29 oktyabr 2021-ci il tarixində keçirilmiş Qazaxıstanın müstəqilliyinin 30 illiyinə həsr olunmuş L.N.Qumilyov adına Avrasiya Milli Universitetində keçirilən XVIII Beynəlxalq Avrasiya elmi konfransında iştirak edib. Həmin konfransda N. Mehdiyeva "Müstəqilliyə gedən yol: Alma-Ata hadisələri" mövzusunda məruzə ilə çıxış edib.

N.Mehdiyeva konfransın Təşkilat Komitəsi tərəfindən sertifikata layiq görülüb.

# BDU-nun alimlərinin bakterial proteomikanın tətbiqi üzrə araşdırmaları davam edir

***Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya ETL-in müdiri professor Xudaverdi Qənbərovun həmmüəllifi olduğu "Bakterial proteomika və onun patogenezin öyrənilməsi üçün tətbiqi" (Bacterial proteomics and its application for pathogenesis studies) adlı icmal məqalə Web of Sience bazasında indekslənən Q3 kvartil kateqoriyalı Current pharmaceutical biotechnology jurnalında çap olunub.***

Bakteriyaların strukturunda mövcud olan makromolekullar (zülallar, polisaxaridlər, fosfolipidlər və nüklein turşuları) onların həyat qabiliyyətinin saxlanmasında və patogenezində mühüm rol oynayır. İcmal məqalədə bakteriyaların makromolekullarının öyrənilməsinin iki metodla: genomika və proteomika ilə həyata keçirilməsi analiz edilir. Proteomik yanaşma hüceyrədə zülalların identifikasiyasına və funksiyasının öyrənməsinə yollar açır. Nəticədə bakteriyalarda antibiotiklərə davamlılığın, bakterial ərpin formalaşmasının və ətraf mühitə adaptasiyanın və patogenezin mexanizmləri aşkarlanır. Patogenezin mexanizminin bəlli olması bakterial infeksiyaların diaqnostikasını tez, asan və dəqiqliklə aparılmasına imkan verir.

# Ramiz Əskərə Özbəkistanın "Turan" Elmlər Akademiyasının akademiki adı verilib

***Özbəkistanın "Turan" Elmlər Akademiyasının (TEA) İdarə heyətinin iclasında Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müdiri, professor Ramiz Əskərə yekdilliklə TEA-nın akademiki adının verilməsi qərara alınıb.***

Akademik Səxavət Ociyevin təqdimatı ilə keçirilən iclasda TEA-nın prezidenti Xaydarbek Bababekov Ramiz Əskərin yaradıcılığı haqqında məlumat verib, alimi türk dünyasının tanınmış türkoloqlarından biri kimi xarakterizə edib. O deyib ki, Ramiz Əskər Azərbaycan ilə Özbəkistan arasında elmi əlaqələrin inkişafındakı, böyük özbək şairi Əlişir Nəvainin "Xəmsə"sinin və digər ədiblərimizin əsərlərinin Azərbaycan dilinə tərcüməsi, nəşri sahəsindəki xidmətlərinə görə bu ada layiq görülüb. Ramiz Əskər 2010-cu ildən etibarən özbək ədəbiyyatının təbliği, tərcüməsi və tədrisi ilə intensiv surətdə məşğuldur. Alim 2011-ci ildə XX əsr özbək poeziyası antologiyasını hazırlayıb, klassik özbək şairlərindən Sultan Hüseyn Bayqaranın və Zəhirəddin Məhəmməd Baburun divanlarını Azərbaycan dilinə uyğunlaşdıraraq Bakıda nəşr etdirib. Bundan sonra Baburun məşhur "Baburnamə" əsərini Azərbaycan dilində oxucuların ixtiyarına verib.

Səxavət Ociyev bildirib ki, Ramiz Əskər indiyədək özbək ədəbiyyatına dair 15 kitab ortaya qoyub. Bu kitablar arasında Əlişir Nəvainin "Xəmsə"si xüsusi yer tutur. Ramiz Əskər son üç ildə dahi şair və mütəfəkkir Əlişir Nəvainin əsərlərinin tərcüməsi üzərində işləyib. Alimin gərgin əməyi nəticəsində Nəvainin məşhur "Xəmsə"si ("Heyrətül-əbrar", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Səbayi-səyyar" və "Səddi-İskəndəri") bu il ana dilində işıq üzü görüb. Bundan əlavə Ramiz Əskər ulu sənətkarın beş risaləsini, o cümlədən "Məhbub ül-qülub" əsərini də Azərbaycan dilinə tərcümə edib. Hazırda şairin həyatı və yaradıcılığı haqqında sanballı bir monoqrafiya - "Nəvainin lirikası" kitabı üzərində çalışır.

# Psixoloji Yardım Sektoru fokus qrup təlimləri keçirir

***Bakı Dövlət Universitetinin Psixoloji Yardım Sektoru tələbələr üçün fokus qrup görüşləri keçirir. Fokus qrupların keçirilməsində məqsəd tələbələr üçün aktual olan mövzuları öyrənmək və bu mövzuları nəzərə alaraq təbliğat və təlimlər apar-maqdır. Qrup üzvləri görüş zamanı tələbələr üçün aktual mövzuları müxtəlif aspektlərdən müzakirə edirlər.***

Qeyd edək ki, fokus qrupda əsas məqsəd iştirakçıların mövzu barədə rəylərini və məsələlərə baxışlarını kollektiv müzakirə mühitində öyrənməkdir. Tədqiqatçıya



lazım olan informasiya iştirakçıların qarşılıqlı müzakirə və söhbəti əsasında əldə edilir. Fokus qrup insanların şəxsi fikir, təcrübə, rəy, narahatlıq və arzularını öyrənmək üçün faydalı tədqiqat metodudur. Burada respondentlərin birbaşa iştirakı ilə tədqiqatçı tərəfindən müəyyən edilmiş spesifik mövzular qrup halında müzakirə olunur.

BDU-nun Psixoloji Yardım Sektoru tərəfindən növbəti fokus qrup müzakirələri 06-10 dekabr tarixlərində "Valideyn-övlad", "Tələbələrin adaptasiya dövrü" mövzuları üzrə aparılıb.

*Təlimlərə qatılmaq üçün Psixoloji Yardım Sektorunun +994 (77) 304 24 48 whatsapp nömrəsinə müraciət edə bilərsiniz.*

# BDU-nun tələbələri Səbahəddin Əlinin “İçimizdəki şeytan” adlı romanının müzakirəsində iştirak ediblər



***Dekabrın 3-də Şərqşünaslıq fakültəsinin regionşünaslıq (Türkiyə üzrə) ixtisasının IV kurs tələbələri ADA Universitetində Türkiyə ədəbiyyatının görkəmli qələmlərindən olan Səbahəddin Əlinin yaradıcılığı və onun “İçimizdəki şeytan” adlı romanının müzakirəsinə həsr olunmuş tədbirdə iştirak edibər.***

Tədbirdə iştirak edən Şərqşünaslıq fakültəsinin dekanı vəzifəsini icra edən Tərlan Məlikov Şərqşünaslıq fakültəsinin tələbələrinin intellektli və bilikli yetişməsi istiqamətində elmi və ictimai-sosial layihələrdə aktiv iştirakın vacibliyindən, bu tip sosial yönümlü layihələrin onların mütaliəyə marağını artıracağından, sosial aktivliyini inkişaf etdirəcəyindən, nitq qabiliyyətlərinin möhkəmləndiriləcəyindən bəhs edib. Tərlan Məlikov belə bir faydalı layihəni dəstəklədikləri üçün ADA-nın rəhbərliyinə, ADA Kitabxana və informasiya xidmətləri şöbəsinin direktoru Elçin Məmmədova, sosial layihənin rəhbərləri Tərlan Abbasova və Nigar Bayramovaya təşəkkürünü bildirib. Gələcəkdə bu istiqamətdə BDU və ADA-nın birlikdə əməkdaşlıq edəcəyinə dair fikirlərini diqqətə çatdırıb.

Tədbirdə Səbahəddin Əlinin tədqiqatçısı, Şərqşünaslıq fakültəsi Türk filologiyası kafedrasının dosenti Nurlanə Mustafayeva da iştirak edərək ədibin yaradıcılığına diqqət çəkib, “İçimizdəki şeytan” romanının geniş təhlil edib. 41 illik ömrünün Osmanlı İmperiyasının süqut etdiyi, Türkiyə Cümhuriyyətinin qurulduğu bir dövrə təsadüf edən Səbahəddin Əli yaradıcılığı fonunda siyasi-ictimai mühit təhlil olunub.

Tədbir “İçimizdəki şeytan” əsəri, Səbahəddin Əli yaradıcılığına dair müxtəlif fikirlər, təhlillər, müzakirələrlə davam edib.

# Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri “YARAT” Müasir İncəsənət Mərkəzini ziyarət ediblər



***Dekabrın 6-da Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələrinin “YARAT” Müasir İncəsənət Mərkəzinə ekskursiyası təşkil olunub. Ekskursiya zamanı tələbələrə 2015-ci ilin mart ayından fəaliyyət göstərən Mərkəz haqında məlumatlar verilib, Mərkəzin yalnız Azərbaycanda deyil, regionda müasir incəsənətin inkişafına töhfələr verdiyi diqqətə çatdırılıb.***

Tələbələr Mərkəzdə rəssam Rəşad Ələkbərovun eksperiment çərçivəsindən kənara çıxmış multidistiplinar fərdi sərgisi ilə tanış olublar. Rəssamın modern tərzdə təqdim edilən sərgisi tələbələrin xüsusi marağına səbəb olub, onlar sərgi labirintində iştirak edib və öz fikirlərini qeyd edərək sərginin bələdçisi ilə diskussiya aparıblar. Ekskursiya tələbələrdə böyük təəssürat yaradıb.

# "Antinarkomaniya - parlaq gənclik"

***Dekabrın 17-də Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə “Bizim Nəsil” Gənclərin Regional İnkişaf Assosiasiyasının təşkilatçılığı ilə "Antinarkomaniya-parlaq gənclik" mövzusunda tədbir keçirilib.*** Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbiri giriş sözü ilə açan layihə rəhbəri Ülkər Həsənova tədbir iştirakçılarına layihə haqqında ətralı məlumat verib, layihə çərçivəsində keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətini vurğulayıb.

Daha sonra layihə çərçivəsində hazırlanmış maarifləndirici videoçarx nümayiş olunub, təlimçi qismində dəvət olunmuş Orxan Şahbaz narkomaniya, zərərli vərdişlər və onlardan uzaq dayanmağın yolları haqda tələbələrə ətraflı məlumat verib. Tədbir tələbələrin mövzu ətrafında suallarının cavablandırılması ilə yekunlaşıb.

Tədbirin keçirilməsində əsas məqsəd narkomaniya və bu kimi zərərli vərdişlərə qarşı gənclərin düzgün maarifləndirilməsi, bu zərərli vərdişlərin fəsadları ilə bağlı məlumatlandırma, yeniyetmə və gənclərin yaxşı təhsil və sağlam həyat tərzi seçməsinə dəstək vermək və ümumilikdə bu sosial bəlaya qarşı mübarizədə fəal iştrak etməkdən ibarətdir.

# BDU Konfutsi İnstitutunun tələbəsi “Çin dili körpüsü" adlı yarışda III yeri qazanıb



***Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun tələbəsi Banu Səfərova xarici orta məktəb şagirdləri üçün Çin dili üzrə “Çin dili körpüsü” mövzusunda XIV beynəlxalq müsabiqədə üçüncü yeri tutub.***

2021-ci ilin iyul ayında Banu Səfərova xarici orta məktəb şagirdləri üçün 14-cü “Çin dili körpüsü” adlı yarışın Azərbaycan bölməsinin finalında iştirak edərək birincilik qazanıb. Seçim turu Çinin Azərbaycandakı səfirliyinin dəstəyi ilə bu ölkənin Beynəlxalq Təhsil Fondu və Konfutsi İnstitutu tərəfindən təşkil edilib. Müsabiqəyə orta məktəblərin və gimnaziyaların şagirdləri, eləcə də BDU-nun nəzdində Konfutsi İnstitutundakı Çin dili kurslarının tələbələri qatılıblar.

14-cü “Çin dili körpüsü” adlı yarışın final mərhələsində B.Səfərova Çin dili yarışmasında iştirak edən azərbaycanlı iştirakçıların tarixində ən yüksək rekordu ilə ilk dəfə olaraq dünyanın ən yaxşı 30-luğuna daxil olub. Üçüncü yeri qazanan Banu bir semestrlik Çində təhsil almaq üçün Beynəlxalq Çin dili müəllimləri təqaüdü qazanıb.

16 yaşlı Banu Səfərova hazırda Bakıdakı 7 saylı orta məktəbin səkkizinci sinfində oxuyur. Uşaqlıqdan Çin dili və mədəniyyətinə böyük maraq göstərir.

# “İntihar halları və mübarizə yolları” mövzusunda görüş keçirilib

***Dekabrın 17-də Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı və LOQOS Psixoloji və Nitq inkişaf mərkəzinin tərəfdaşlığı ilə gənclər arasında “İntihar hallarının qarşısının alınması”na dair maarifləndirmə fəaliyyətlərinin həyata keçirilməsi ilə bağlı peşəkar psixoloqların psixologiya sahəsinə həvəsli gənclərlə görüşü keçirilib.*** Görüşdə psixoloq Emin Səfərov son zamanlar gənclər arasında artan intihar hallarının əsas psixoloji səbəbləri (bulinq halları, psixologiyanın pozulması, ailə münaqişəsi, internetdən asılılıq, məcburetmə, erkən nigah, maddi durumun ağır olması, sosial problemlər və s.) və bunların aradan qaldırılmasının yolları barədə geniş məlumat verib.

Layihənin həyata keçirilməsində əsas məqsəd təhsil müəssisələrində baş vermiş intihar hallarının araşdırılması, müəyyənləşdirilməsi və bundan sonra bu cür halların baş verməməsi üçün gənclər və yeniyetmələr arasında maarifləndirmə işlərinin aparılmasından ibarətdir. Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# BDU-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü qeyd olunub







**Bakı Dövlət Universitetində 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilib**

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev milli birlik, azərbaycançılıq ideyasını özündə əks etdirən Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əhəmiyyətindən bəhs edərək, bu əlamətdar günün tarixə düşməsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu və Azərbaycan xalqı tərəfindən böyük qürur hissi ilə qeyd edildiyini vurğulayıb. Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirən rektor ölkəmizdə iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin inkişaf etdiyini xatırladaraq əlamətdar gün münasibətilə müəllim və tələbələri təbrik edib.

Rektor onu da qeyd edib ki, vidalaşacağımız 2021-ci il ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında çox mühüm hadisələrlə, xüsusilə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin bir illiyinin qeyd olunması, işğaldan azad olunmuş torpaqlarımızda genişmiqyaslı quruculuq işləri ilə yaddaşlara həkk olunub. Ölkəmiz həm beynəlxalq aləmdə, həm də ölkə səviyyəsində bir sıra uğurlara imza atıb, elm və təhsilin inkişafı istiqamətində önəmli nailiyyətlər əldə edilib.

Tarix fakültəsinin dosenti Ülviyyə İbrahimova Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixindən, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Vətənə bağlılığından söhbət açıb.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin təqdimatında rəngarəng musiqi nömrələri və rəqslərlə davam davam edib.

# BDU THİK nəzdində fəaliyyət göstərən Debat klubunun turniri yekunlaşıb

***Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) nəzdində fəaliyyət göstərən Debat klubunun 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Ənənəvi təhsil distant təhsil sistemindən daha effektivdir" mövzusunda 44-cü daxili turniri keçirilib. Üç gün davam edən turnirdə Azərbaycan bölməsi üzrə 20 komanda, rus bölməsi üzrə 8 komanda təlimlərdə öyrəndiklərini tətbiq edərək kubok uğrunda mübarizə aparıblar.***



Turnirin açılış və bağlanış mərasimlərində BDU THİK sədri Hacıbaba Mustafayev, BDU Debat klubunun sədri Nadir Rzalı, Debat klubun məzun debatçıları - hakim, təlimçi və məşqçilər Seyidməmməd Məmmədzadə, Hamlet Ağayev, Kamran Mustafayev, Sona Cəlilli, Səyyarə Qurbanlı, Emil Zadayev, Hüseyn Hüseynov və digərləri çıxış edərək yeni debatçılara uğurlar arzulayıblar.

Azərbaycan bölməsi üzrə "Renessans" və "Valeez 19" komandaları, rus bölməsi üzrə "Niyə də yox?" və "Saxlasın" komandaları final mərhələsinə vəsiqə qazanıblar. Azərbaycan bölməsi üzrə "Valeez 19", rus bölməsi üzrə "Niyə də yox" komandaları 44-cü daxili turnirin çempionu olublar. Hər iki bölmə üzrə ən yaxşı 10 natiq, finalçılar və qaliblər sertifikat və medallarla təltif ediliblər.

# BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı BDU-ya kitablar hədiyyə edib



***Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına 9 adda 1095 nüsxə kitab hədiyyə edib.***

Kitablarda qaçqın statusunun müəyyənləşdirilməsi üçün prosedurlara və meyarlara dair təlimat və rəhbər prinsiplər, vətəndaşsızlıq hallarının azaldılması haqqında konvensiyalar, məcburi köçkünlərin himayəsi üzrə təlimatlar, qaçqınların statusuna dair konvensiya və protokollar, BMT-nin uşaq hüquqları üzrə konvensiyaları və digər beynəlxalq sənədlər haqqında geniş məlumat verilir.

Kitablar Universitetin Hüquq, Beynəlxalq münasibətlər və iqtisadiyyat, Sosial elmlər və psixologiya, Tarix fakültələrinin professor-müəllim heyəti və tələbələri üçün qiymətli mənbədir.

# "Soyuq günəş" filminin qəhrəmanları BDU-da



***Bakı Dövlət Universitetində Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə "Soyuq günəş" filminin baş rollarını oynayan İranə Kərimova və Mirsənan Kazımovla tələbələrin görüşü keçirilib.***

Mərkəzin rejissoru Vahid Orucoğlu görüşdə çıxış edərək bildirib ki, "Soyuq günəş" bədii filmi ləzgi xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini əks etdirir. Film müharibə problemləri və məhəbbət mövzusunda lentə alınıb. Yarmət və Yarqunatın sevgi hekayəsindən bəhs olunur. Film qısa zamanda tamaşaçılar tərəfindən sevilib.

Daha sonra İranə Kərimova və Mirsənan Kazımov filmin çəkilişləri haqqında danışıb, tələbələrin çoxsaylı suallarını cavablandırıblar.

Ssenari müəllifi Sədaqət Kərimova, quruluşçu rejissoru Elşən Zeynallı olan filmin çəkilişləri Qusar rayonunun Həzrə kəndində və Türkiyədə aparılmışdır. Filmin quruluşçu operatoru Elxan Rüstəmov, rejissoru Məlahət Əhməd, bəstəkarı Sədaqət Kərimova, səs rejissoru Teymur Kərimovdur.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Allahverdi Məmmədli, Cahangir Məmmədli, Samir Mirzəyev

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.12.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08